AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

Əlyazması hüququnda

ŞƏHLA QASIM QIZI ƏLİYEVA

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN MƏNƏVİ TƏRBİYƏSİNİN ELMİ- PEDAQOJİ ƏSASLARI

5804.01-ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyasının

A V T O R E F E R A T I

BAKI- 2014

Dissertasiya işi Azərbaycan Dövlət Pedaqoji Universitetində yerinə yetirilmişdir.

**Rəsmi opponentlər:** **Əjdər Əbdülhüseyn oğlu Ağayev**
pedaqogika üzrə elmlər doktoru, professor

**Hikmət Əbdül oğlu Əlizadə**
pedaqogika üzrə elmlər doktoru, professor

**Şahin Tağı oğlu Tağıyev**
pedaqogika üzrə elmlər doktoru, professor

**Aparıcı təşkilat:** Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrası

Müdafiə "_15_"__04__2014-cü il tarixdə saat___da
Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət
göstərən BD.02.061 dissertasiya şurasının iclasında
kiçik akt zalında keçiriləcəkdir.

**Ünvan:** AZ-1000, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 34

Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin
elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "___"________2014-cü ildə göndərilmişdir.

Dissertasiya Şurasının
elmi katibi: **K.R.Quliyeva**
pedaqogika üzrə fəlsəfə
doktoru, dosent

TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Məktəbəqədər təhsil müəssisələrində və ailədə təlim-tərbiyə işinin yüksək səviyyədə aparılması gələcək vətəndaşın, şəxsiyyətin formalaşmasına yönələn proses olduğundan ona həm dövlət səviyyəsində, həm ailə, həm də ayrı-ayrı vətəndaşlar səviyyəsində diqqət və qayğı göstərilməsi olduqca mühümdür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci il 12 aprel tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramı (2007 – 2010-cu illər)" bu qayğı və diqqətin təzahürü kimi respublikamızda məktəbəqədər təhsilin yeniləşdirilməsi və inkişafına yeni təkan və impulslar vermişdir. Məqsəd və vəzifələri məktəbəqədər təlim-tərbiyə prosesinin məzmunca yeniləşdirilməsi, uşaqların fiziki, əqli, psixoloji inkişafı və onların məktəbə hazırlığında mütərəqqi beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqindən ibarət olan bu proqram ailədə və məktəbəqədər təhsil müəssisələrində uşaqların mənəvi tərbiyəsinin kökündən yaxşılaşdırılması işində pedaqoqların, valideynlərin və tərbiyəçilərin qarşısında böyük üfüqlər açır.

Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin inkişafında və formalaşdırılmasında valideynlər və tərbiyəçilər məsuliyyət daşıyır. Məhz onlar erkən yaş dövründən etibarən uşaqların əqli, əxlaqi, fiziki və psixi inkişafını təmin etməli, onların ən sadə əmək vərdişlərinə yiyələnmələrinə xüsusi imkan yaratmalıdırlar. Belə bir şəraitin yaradılması isə uşaqların sağlamlığının qorunmasına, onlarda mövcud istedad və qabiliyyətlərin üzə çıxarılmasına səbəb olur. Nəticədə uşaqların bir sıra əxlaq normalarının, o cümlədən əməksevərlik, işgüzarlıq, vətənpərvərlik, vətəni qorumaq, düzlük, doğruçuluq, ətraf mühiti və gözəllikləri sevmək kimi keyfiyyətlərinin üzə çıxarılmasına stimul yaranmış olur. Məhz bu keyfiyyətlər əsasında mənəvi tərbiyənin bünövrəsi qoyulmuş olur. Bunun üçün isə ailədə və məktəbəqədər təhsil müəssisələrində məqsədyönlü, planlı və mütəşəkkil işlər aparılmalıdır.

Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsi cəmiyyətdə meydana gələn yeni ictimai-iqtisadi münasibətlər, təfəkkür tərzi və gənc nəslin tərbiyəsinin yeni məzmunda təşkili zərurəti ilə şərtlənir. Bu baxımdan, mövcud şəraitdə Azərbaycanda mənəvi tərbiyə problemi də

dövrün ictimai, iqtisadi və siyasi təsirlərindən yaranan özünəməxsus məzmunu ilə səciyyələnir.

Respublikamızda məktəbəqədər təhsil sistemi böyük bir inkişaf yolu keçmişdir. Onun inkişafı bu sistemdə təlim-tərbiyə prosesinin keyfiyyətinə də əsaslı təsir göstərmişdir.

Son illər respublikamızda aparılan uğurlu daxili və xarici siyasət, bazar iqtisadiyyatına keçidin müvəffəqiyytlə başa çatması, neft siyasətinin reallaşması, təhsil sahəsində aparılan islahatlar, xalqımızın sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, dövlət büdcəsindən məktəbəqədər təhsilə ayrılan vəsaitin əsaslı surətdə artırılması, məktəbəqədər təhsil müəssisələrində şəraitin yaxşılaşdırılması kimi tədbirlər bu sahədə aparılan işlərin səviyyəsinin yüksəlməsinə əhəmiyyətli dərəcədə təsir etmişdir.

Heydər Əliyev fondunun prezidenti Mehriban xanım Əliyevanın ciddi səyi və qayğısı nəticəsində respublikamızda bir sıra yeni tipli uşaq bağçalarının inşa edilməsi, bağçalarda uşaqların hərtərəfli inkişafını təmin edən məqsədyönlü, planlı və mütəşəkkil işlərin aparılması uşaqların təhsili və tərbiyəsinə olduqca mühüm təsir göstərmişdir. Lakin görülmüş bir sıra mühüm işlərə baxmayaraq hazırda ölkəmizin şəhər, rayon və kənd bağçalarında, eyni zamanda ailələrdə uşaqların mənəvi tərbiyəsilə bağlı həyata keçirilən işlərin səviyyəsi mövcud tələblərdən çox geri qalır. Bu məsələ Heydər Əliyev fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramında da öz əksini tapmışdır (27.02.2014-cü il). Bunun isə bir sıra obyektiv və subyektiv səbəbləri vardır. Bunlar məktəbəqədər təhsil müəssisələrinin bəzilərinin maddi-texniki bazasının zəif olması, bağçaların Təhsil Nazirliyi sistemində olmaması, bir sıra bağça rəhbərlərinin, tərbiyəçilərinin iş planlarında mənəvi tərbiyə probleminin geniş yer almaması və s. ibarətdir.

Məktəbəqədər yaşlı uşaqlarda mənəvi tərbiyənin inkişafı onların sosiallaşması prosesində baş verən mühüm pedaqoji prosesdir. Bu keyfiyyətlər hər bir fərdin sosial-mədəni inkişafında, cəmiyyətin mənəvi təcrübəsində özünün daxili tələblərinə uyğunlaşdıraraq mənimsədiyi, qəbul etdiyi xassələr kimi özünü göstərir. Mənəvi tərbiyə üzrə keyfiyyətlərin formalaşdırılması hər bir tarixi inkişaf mərhələsində təhsil, tərbiyə və özünütərbiyənin mühüm vəzifələrindən biri olmuşdur.

Uşaqlarda mənəvi keyfiyyətlərin tərbiyəsi sahəsində Azərbaycan pedaqoqlarından M.Mehdizadə, M.Muradxanov, Ə.Seyidov, H.Əhmədov, Ə.Ağayev, N.Kazımov, Ə.Həşimov, H.Əlizadə, S.Quliyev, Y.Talıbov, F.Rüstəmov, Y.Kərimov, Ə.Paşayev, A.Həsənov, R.Hüseynzadə, N.Muxtarova, V.Xəlilov, A.Abbasov, M.İlyasov, F.Sadıqov, Ə.Qədimbəyova, N.Rüstəmova, R.Mursaqulova, Z.Vəliyeva və b. bir sıra tədqiqatlar aparmışlar. Onların əsərlərinin əksəriyyətində mənəvi tərbiyənin bir sıra aspektləri işlənilmişdir. Lakin bilavasitə məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində konkret metodikalar və eksperiment nəticəsi olan təhlillər olduqca azdır. Dünya və Azərbaycan pedaqoji fikir tarixində şagirdlərin mənəvi keyfiyyətlərinin formalaşması məsələsi ümumi pedaqoji kontekstdə öyrənilsə də, məktəbəqədər yaş dövründə onun strukturu, yaş dinamikası, irsi, milli, sosial amillər və şəxsiyyət xassələri ilə qarşılıqlı əlaqəsi hələ sistemli qaydada araşdırılmamışdır. Bunun bir səbəbi də ötən dövrlərdə həm ailədə, həm də təlim-tərbiyə müəssisələrində uşağın mənəvi aləminin inkişafına ideoloji ölçülərlə yanaşılması və bu sahədə bir sıra nöqsanlara yol verilməsi olmuşdur.

Gənc nəslin bir şəxsiyyət kimi formalaşması həmin cəmiyyətin bir nömrəli vəzifəsi olmuş və indi də olmaqdadır. Şəxsiyyətin isə ən mühüm keyfiyyətlərindən biri onun mənəviyyatca yetişkən olmasıdır, konkret desək, mənəvi tərbiyəsidir. Mənəvi mədəniyyət, mənəvi təmizlik, əxlaqi paklıq ictimai-sosial həyatda əldə edilən müvəffəqiyyətlərin əsas şərtlərindən biridir. Həyat daim dinamik inkişaf edir. Belə bir dinamik inkişafın tələblərinə cavab vermək üçün uşaqlarımız lap kiçik yaşlardan intizamlı, vətənpərvər, əxlaqca saf, təmiz, düz əqidəli böyüməlidir.

Təcrübə göstərir ki, həyatımızın müasir mərhələsində adamlarımızın əxlaqi şüurunda, davranışında xoşagəlməz hərəkətlər, yalançılıq, oğurluq, dövlətçiliyimizə xəyanət və s. hələ də vardır. Bütün bunlar lap kiçik yaşlardan məktəbəqədər yaşlı uşaqlara elmi biliklər aşılanmaqla yanaşı, onların mənəvi tərbiyəsi qayğısına da qalmağı tələb edir.

İnsana məxsus olan keyfiyyətlər onun mənində öz ifadəsini tapanda o, bütöv şəxsiyyət olur. Bütöv, mənəvi tərbiyəli olan insan həmişə özünü və başqalarını düzgün qiymətləndirir, özünü düzgün dərk edir, özünə nəzarəti qüvvətləndirir.

Məktəbəqədər yaş dövrü postnetal ontogenetik inkişafın mühüm mərhələlərindən biridir. Bu yaş dövründə uşağın şüurunun formalaşmasında özünü göstərən keyfiyyət dəyişmələri insan şəxsiyyəti haqqında danışmağa geniş imkan verir. Məktəbəqədər mərhələdə uşağın mənəvi aləminin formalaşması qanunauyğunluqları, bu prosesdə milli-mənəvi əmsalların müəyyənləşdirilməsi onların gələcək bir şəxsiyyət kimi formalaşmasının əsasında durduğundan bu problem Azərbaycan pedaqogikasının aktual problemlərindən biri olmuş və bu gün də olmaqdadır. Bu sahədə müasir tələblərə cavab verə biləcək elmi-tədqiqat işlərinin aparılmasına, onun dissertasiya səviyyəsində araşdırılmasına ehtiyac vardır. Bütün bunları nəzərə alaraq biz "Məktəbəqədər yaşlı uşaların mənəvi tərbiyəsinin elmi-pedaqoji əsasları" problemini tədqiqat mövzusu kimi müəyyənləşdirməyi və tədqiq etməyi məqsədəmüvafiq saymışıq.

**Tədqiqatın obyekti** – məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsi prosesidir.

**Tədqiqatın predmeti** – məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin elmi-pedaqoji əsaslarından ibarətdir.

**Tədqiqatın fərziyyəsi**. Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində, mənəvi dəyərləri onlara mənimsətməkdə ailə tərbiyəsi və uşaq bağçasının birgə işi və səyi arasında bir asılılıq mövcuddur. Bu nəzəriyyəyə uyğun olaraq məktəbəqədər yaş dövrünün ilk mərhələlərindən başlayaraq:

a) uşağın təlabatları onun pedaqoji-psixoloji xüsusiyyətlərinə müvafiq qaydada ödənildikdə;

b) uşaqlarda mənəvi keyfiyyətlərin tərbiyəsində valideynlərin yüksək mənəvi keyfiyyətlərinin təsiri olduqda;

c) uşaqlarda mənəvi keyfiyyətlərin tərbiyəsində uşaq bağçasının və fəaliyyət növlərinin müsbət təsiri olduqda;

q) tərbiyə metodlarının tətbiqi zamanı uşağın həyat təcrübəsi ilə sosial mühitin qarşılıqlı əlaqəsi təmin edildikdə;

d) tərbiyə prosesində uşaqlara mənəvi borc, mənəvi tərbiyə təsəvvürləri və anlayışlarını şərtləndirən adətlər sistemi aşılandıqda məktəbəqədər yaşlı uşaqlarda mənəvi keyfiyyətlər səmərəli şəkildə formalaşar və bu da gənc nəslin hərtərəfli inkişafına yaxından kömək edər.

**Tədqiqatın məqsədi** məktəbəqədər yaş dövründə uşaqların mənəvi keyfiyyətlərinin formalaşmasına və inkişafına təsir göstərən

başlıca amilləri üzə çıxarmaq, ailədə və məktəbəqədər təhsil müəssisələrində qurulan tərbiyə işini, mövcud pedaqoji iqlimin məzmununu, təbii və sosial amillərin xarakterini araşdırmaq, uşaqların mənəvi tərbiyəsinin elmi-pedaqoji sistemini tədqiq etmək və pedaqoji əsaslarını müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri**:

—məktəbəqədər yaşlı uşaqlarda mənəvi keyfiyyətlərin formalaşmasının xüsusiyyətlərini öyrənmək;

—mənəvi tərbiyənin uşaq şəxsiyyətinin digər komponentlərinə təsiri imkanlarını müəyyənləşdirmək;

—mənəvi inkişafa təsir göstərən təbii və sosial amillərin məzmununu aydınlaşdırmaq;

—ailədə və məktəbəqədər müəssisələrdə qurulan mənəvi tərbiyə işinin xüsusiyyətlərini öyrənmək;

—ətraf mühitlə qarşılıqlı əlaqənin mənəvi inkişafa təsirini araşdırmaq;

—məktəbəqədər yaşlı uşaqlarda mənəvi keyfiyyətlərin formalaşdırılmasının yol və vasitələrini işləyib hazırlamaq.

**Tədqiqatın metodoloji əsaslarını** pedaqoji gerçəkliyin, yəni pedaqoji fakt, hadisə və proseslərin dərk edilməsi və dəyişdirilməsi haqqında nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədqiqatın metodları**: nəzəri təhlil, müşahidə ,psixodiaqnostik metodlar, pedaqoji eksperiment, qabaqcıl təcrübənin öyrənilməsi və ümumiləşdirilməsi və s.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycan pedaqoji elmində məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin xüsusiyyətləri üzə çıxarılmış, onun sistemi və pedaqoji əsasları tədqiq edilmiş, onun etibarlılığı eksperimental yolla sübuta yetirilmişdir. Məktəbəqədər yaşlı uşaqların ailədə və məktəbəqədər tərbiyə müəssisələrində mənəvi tərbiyə işinin bütöv bir sistemi və elmi-pedaqoji əsasları işlənib hazırlanmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Dissertasiyada irəli sürülən nəzəri müddəalar pedaqogika elmini məktəbəqədər yaşlı uşaqların mənəvi keyfiyyətlərə yiyələnmə imkanları və xüsusiyyətləri, mənəvi tərbiyənin milli və ümumbəşəri amillərinin psixopedaqoji ölçüləri haqqındakı empirik məlumatla, elmi nəticələrlə zənginləşdirə biləsəkdir. Həmçinin ailədə uşaqların mənəvi tərbiyəsi üçün yaradılmış pedaqoji şəraitin səviyyəsi, valideynlərin mənəvi tərbiyə işinə münasibəti, uşaqlarda mənəvi inkişafın dinamikası və mənəvi keyfiyyətlərin formalaşmasının

psixoloji-pedaqoji xarakteri müasir psixoloji-pedaqoji cərəyanların metodoloji kontekstindən müqayisəli təhlili, uşaqlarda mənəvi keyfiyyətlərin, əxlaqi və mənəvi davranış elementlərinin formalaşmasının xarakteri, bu prosesdə pedaqoqların rolu və tərbiyənin təşkili yollarının müəyyənləşdirilməsi məktəbəqədər pedaqogika nəzəriyyəsini zənginləşdirə biləsəkdir.

**Tədqiqatın praktik əhəmiyyəti**. Tədqiqatın nəticələri yetişən nəslin mənəvi tərbiyəsi işinin yeni metodlarını müəyyənləşdirməyə imkan verir. Dissertasiyada irəli sürülən elmi-nəzəri fikirlərdən, istifadə edilmiş didaktik materiallardan, praktik təkliflərdən, müəyyənləşdirilən yol və vasitələrdən, nəticələrdən respublikamızda məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsi üzrə proqramın işlənilməsində və kiçik yaşlı uşaqların mənəvi tərbiyəsinin praktik təşkilində geniş istifadə etmək olar.

**Müdafiəyə çıxarılan başlıca müddəalar aşağıdakılardan ibarətdir**:

1.Məktəbəqədər yaş dövründə ailədə və məktəbəqədər təhsil müəssisələrində aparılan tərbiyə işləri uşaqların mənəvi tərbiyəsinin əsasını şərtləndirir. Onların intellektual inkişafı ilə bilavasitə əlaqədardır.

2.Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsi onların genetik imkanları və sosial təcrübəsi ilə şərtlənir.

3.Məktəbəqədər yaşlı uşaqlarda mənəvi dəyərlərimizə hörmət və məhəbbət hissinin formalaşdırılması, milli kökə bağlılıq şəxsiyyətin strukturunda mənəvi tərbiyəni tədricən əsas sahəyə çevirir.

4.Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsi ailədəki pedaqoji-psixoloji iqlimlə,valideynin özünün mövqeyi, onun hansı sosial qrupa daxil olması ilə bilavasitə əlaqədardır.

5.Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsi onların yaşadıqları dövrlə və məkanla şərtlənir.

6.Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsi yaşıdları və yaşlılarla ünsiyyətdən, tərbiyəçilərin pedaqoji ustalığından, onları əhatə edən mikro və makromühitdən bilavasitə asılıdır.

7.Məktəbəqədər təhsil müəssisələrində tətbiq olunan təhsil proqramı(kurikulum), o cümlədən alternativ proqramların məzmununda mənəvi tərbiyə məsələlərinin öz əksini tapması bu problemin həllini şərtləndirir.

8.Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsi məktəbəqədər təhsil müəssisələrində aparılan məşğələlər zamanı istifadə edilən tədris materialının, oyun və əyləncələrin düzgün seçilməsindən, əşyavi-inkişafetdirici mühitin müasir tələblərə uyğun qurulmasından asılıdır.

**Tədqiqatın aprobasiyası**. Dissertasiyanın əsas müddəaları müəllifin dərc olunmuş 45 əsərində - 34 məqalə ( bunlardan 3-ü xarici ölkələrdə), 3 dərs vəsaiti, 1 monoqrafiya və 7 konfrans materialında (4 beynəlxalq, 3 ümumrespublika) öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, beş fəsil, on beş yarım fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

"G**iriş"də** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsədi, irəli sürülmüş fərziyyələr, əsas məqsəddən doğan vəzifələr, tədqiqatın metodoloji əsasları, tədqiqatın bazası, işin elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə təqdim olunan əsas müddəalar göstərilir.

Dissertasiyanın birinci fəsli **"*Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin ümumi – nəzəri məsələləri*"** adlanır. İki yarımfəsildən ibarət olan bu fəslin *"Mənəvi tərbiyənin mahiyyəti, məqsədi və vəzifələri"* adlanan birinci yarımfəslində mənəvi tərbiyə anlayışının mahiyyəti aydınlaşdırılmış, bu sözün etimoloji məna çalarları izah edilmiş və mənəvi tərbiyənin tərifi verilmişdir: "Tərbiyənin tərkib hissələrinin vəhdətdə götürülməsi şəraitində həyata keçirilən işin təşkili zamanı davranışla əlaqədar olan əxlaq normalarının məqsədyönlü, planlı və mütəşəkkil formalaşdırılması mənəvi tərbiyədir".

Mənəvi tərbiyə özündə həm əxlaq tərbiyəsini, onun bütün komponentlərini, həm də sosial tərbiyəni bütövlükdə əks etdirir. Ona görə, mənəvi tərbiyə əxlaq tərbiyəsindən daha genişdir. Mənəvilik şəxsiyyətin ətrafdakılara yaxşılıq etməyə istiqamətlənməsini nəzərdə tutur. Başqa sözlə desək, mənəvilik uşağı, onun fəaliyyətinin əsas istiqamətlərini insani (əxlaqi) dəyərlərə malik olan sosial varlıq kimi təqdim edir.

Mənəvi mədəniyyət – cəmiyyətin ümummaarifləndirici və əxlaqi potensialının, həmçinin, mənəvi dəyərlərin yaradılması vasitələrinin məcmusudur. Mənəvi mədəniyyətə ideallar, obrazlar, təsəvvürlər,

ənənələr, ümumi yaşamın norma və qaydaları, folklor, incəsənət, din, xalq pedaqogikası, milli ideologiya daxildir.

Mənəviyyat həm də həyat şəraitindən asılı olaraq insanlar arasındakı humanist münasibətləri tənzimləyən ideyalar, prinsiplər, fəaliyyət və davranış normaları, qayda və qanunlar sistemidir.

Məktəbəqədər yaşlı uşağın mənəvi tərbiyəsində bütün çatışmazlıqlar, qüsurlar şəxsiyyətin formalaşmasına təsir edən amillərin düzgün qiymətləndirilməməsindən, obyektiv şəraitin tərbiyəçi tərəfindən nəzərə alınmamasından irəli gəlir. Məlum olduğu kimi, insan şəxsiyyətinin formalaşmasında irsiyyət amili nə qədər böyük rol oynayırsa, ətraf mühit (həm təbii, həm də ictimai mühit) bir o qədər böyük rola malik olur. Şəxsiyyətin formalaşmasında ictimai mühit daha həlledici amil kimi özünü göstərir. Ona görə də insan şəxsiyyətini formalaşdıran obyektiv şəraitə və subyektiv amillərə bir ehkam kimi baxmaq düzgün olmaz. Çünki bunlar da dəyişkəndir. Burada nəzərə çatdırılan əsas cəhət insanın bütün əxlaqi normalara sahib olmasıdır. Deməli uşaqlar nə qədər əxlaq normalarına yiyələnərlərsə, bir o qədər də mənəvi cəhətdən zənginləşirlər. Bütün bunlar dissertasiyada aşağıdakı kimi ümumiləşdirilmişdir:

- mənəvi tərbiyə bir insanın, bir “mən”in daxili dünyasında mövcud olan ən ali insani keyfiyyətləri və davranışla bağlı olan əxlaq normalarının məcmusundan ibarətdir;
- ailələrdə və uşaq bağçalarında məktəbəqədər yaş dövrlərindən başlayaraq uşaqlara təlqin və təqdir edilən əxlaqi normalar onların mənəvi zənginliyini təmin edir. Əxlaqi normalar nə qədər çox olarsa uşağın mənəvi zənginliyi bir o qədər yüksək olar;
- ağıla, etik normalara, əməyə, işgüzarlığa, fiziki sağlamlığa, bədii zövqə, ətraf aləmin saflaşdırılmasına, hüquqi biliklərin artırılmasına əsaslanan mənəvi keyfiyyətlər ən ali insani keyfiyyətlər hesab olunur;
- məktəbəqədər yaşlı uşaqların daxili aləmini düzlük, doğruçuluq, vətənsevərlik, insansevərlik, yurdsevərlik, ölkəmizin ərazi bütövlüyünü, sərhədlərinin toxunulmazlığını qorumaq, humanistlik, halallıq, yardım etmək, əl tutmaq, pay vermək, ətraf mühiti sevib-qorumaq, hüquqi aktlara riayət etmək kimi əxlaq normaları ilə zənginləşdirmək mənəvi tərbiyənin əsas məqsədi hesab olunursa, həmin keyfiyyətlərin yetişən nəslin digər nümayəndələrinə ötürülərək inkişaf etdirilməsi, formalaşdırılması və təkmilləşdirilməsi ən ümdə vəzifələri hesab olunur.

Fəslin ikinci yarımfəsli *“Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin pedaqoji-psixoloji əsasları”* adlanır. Yarımfəsil-də göstərilir ki, məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsini günün tələbləri səviyyəsində inkişaf etdirmək üçün bu işin həm pedaqoji, həm də psixoloji əsaslarının müəyyənləşdirilməsinə zəruri ehtiyac duyulur. Dissertasiyada məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin pedaqoji əsasları kimi müvafiq pedaqoji qanunauyğunluqlar, pedaqoji ziddiyyətlərin təzahür xüsusiyyətləri, pedaqoji prosesdə istinad olunan ümumpedaqoji prinsiplər, ümumpedaqoji üsullar və formalar əsas götürülmüşdür.

Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin təşəkkülü və inkişafı müəyyən qanunauyğunluqlar çərçivəsində baş verir. Təbii ki, belə qanunauyğunluqlar çoxdur.

Mənəvi tərbiyənin təşəkkül tapmasına mane olan müəyyən pedaqoji ziddiyyətlər mövcuddur. Onların da aradan qaldırılması vacibdir. Bu ziddiyyətlər əsasən zahiri ziddiyyətlər və daxili ziddiyyətlər kimi özünü biruzə verir.

Ümumpedaqoji qanunauyğunluqlar, ziddiyyətlər, prinsiplər, üsullar kimi məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin hərtərəfli inkişafında daha əhəmiyyətli dərəcədə rol oynayan digər pedaqoji əsaslar da bu yarımfəsildə izah edilmişdir.

Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin düzgün təşkili zamanı bu işin psixoloji əsaslarının da müəyyənləşdirilməsinin çox mühüm əhəmiyyəti vardır. Ona görə ki, məktəbəqədər yaşlı uşaqlar bir fərd olaraq şəxsiyyət kimi inkişaf etmək üçün fəallığa meyl edir. Psixoloqlar sübut etmişlər ki, bir fərd əgər ictimai münasibətlər sisteminə daxil olursa, ictimai inkişafa doğru hərəkət edərək fəallıq göstərirsə, deməli o, şəxsiyyət kimi özünü göstərir. Sadəcə bu şəxsiyyəti inkişaf etdirmək lazım gəlir.

Bütün bunlar nəzərə alınaraq yarımfəsildə göstərilir: məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin formalaşmasında problemin pedaqoji əsaslarının öyrənilməsi nə qədər zəruri hesab olunursa, problemin psixoloji əsaslarının da həmin səviyyədə öyrənilməsi zəruri sayılır. Məhz bu baxımdan yarımfəsildə məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin formalaşdırılmasında mühüm əhəmiyyət kəsb edən milli qaynaqlardan, xalq yaradıcılığı nümunələrindən, habelə islam dəyərləri

materiallarından istifadənin də psixoloji əsaslarının üzə çıxarılması və onlara istinad olunması ilə bağlı bir sıra zəruri tövsiyələr verilmişdir.

Yarımfəslə yekun vurularkən belə bir qənaət hasil olur ki, məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin formalaşdırılması zamanı məsələnin pedaqoji-psixoloji əsaslarının vəhdətdə götürülməsi problemin müvəffəqiyyətli həllinə daha geniş imkanlar yaradır.

Dissertasiyanın ikinci fəsli "***Müasir dövrdə məktəbəqədər təhsil müəssisələrində uşaqların mənəvi tərbiyəsinin vəziyyəti***" adlanır. Bu fəsil üç yarımfəsli əhatə edir. "*Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyə probleminin elmi-pedaqoji ədəbiyyatda qoyuluşu*" adlanan yarımfəsildə məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin elmi-pedaqoji ədəbiyyatda bu və ya digər dərəcədə öz əksini tapmasından bəhs edilir .Yarımfəsildə göstərilir ki, uşaqların lap erkən yaşlardan tərbiyə edilməsinin zəruriliyi məsələləri Azərbaycan xalqının mənşəyində dayanan qədim türk soylarının mifik təsəvvüründə, dini görüşlərində, fikirlərində öz əksini geniş şəkildə tapmışdır. Təhlillər göstərir ki, Şərq fəlsəfi fikrində mənəvi keyfiyyətlərin formalaşması problemi hələ qədim dövrlərdən insanları maraqlandırmış, onun vasitə və yolları axtarılmışdır.

Uşaqların mənəvi tərbiyəsi problemi həmişə Azərbaycan pedaqoqlarını düşündürmüşdür. Bu problemə aid olan bir sıra əsərlər nəşr olunmuşdur ki, onlardan indi də geniş istifadə edilir. Buraya Ə.Seyidovun, M.Muradxanovun, Z.Göyüşovun, H.Əhmədovun, T.Əfəndiyevin, N.Kazımovun, S.Quliyevin, X.Fətəliyevin, A.Həsənovun, F.Rüstəmovun, Ş.Əliyevanın, Y.Talıbovun, N.Rüstəmovanın, İ.Sultanovanın əsərlərini göstərmək olar. Həmin əsərlərədə mənəvi tərbiyənin mahiyyəti, inkişaf yolları, mənəvi tərbiyəyə təsir göstərən amillər və digər problemlər açıqlanır.

Z.Freyd, D.Bruner, A.Vallon, J.Piaje, L.C.Viqotski, Q.Ollport, C.Kelli, T.A.Repina, V.S.Muxina, M.İ.Lisina, A.A.Lyublinskaya, N.N.Poddyakov və b. gəldikləri nəticə ondan ibarətdir ki, məhz ətraf aləm obyektləri ilə qarşılıqlı münasibət zəminində uşaq özünün mənəvi keyfiyyətlərinin məzmununu aydınlaşdırır, onu əxlaqi normalarla uyğunlaşdırmağa çalışır. Belə tədqiqat əsərləri isə daha çox psixoloji aspektdə olduğu üçün mənəvi keyfiyyətlər pedaqoji yönümdə açılmır.

Amerika, Qərb və Rusiya alimlərindən Q.Qezell, J.J.Russo, H.Holbax, K.D.Uşinski, A.S.Makarenko, K.Koffa, Z.Freyd, K.Yunq,

E.Fromm, J.Piaje, V.Ştern, Q.Ollport, A.Maslou, K.Xorni, A.Freyd, K.Rodcers, L.S.Vıqotski, E.V.Subbotski, A.A.Lyublinskaya, M.İ.Lisina, Q.A.Repina və b. bu sahədə bir sıra sanballı tədqiqatlar aparmış maraqlı nəticələr əldə etmişlər.

Bütün bu təhlillərdən sonra yarımfəsildə belə bir nəticəyə gəlməyi məqsədəmüvafiq hesab etmişik:

- məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin elmi-pedaqoji əsaslarını sistemə salmaq üçün bu problemin elmi-pedaqoji ədəbiyyatdakı qoyuluşunu ətraflı olaraq öyrənib təhlilə cəlb etmək çox zəruridir;
- araşdırılan ədəbiyyat nümunələrindən aydın olur ki, respublikamızın bir sıra pedaqoq -alimləri məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsilə bağlı toxunduqları məsələlərə çox səthi yanaşmışlar;
- Respublikamızdan kənarda hazırlanan ədəbiyyatlarda uşaqların mənəvi tərbiyəsilə bağlı olan yanaşmaların bir qismi məktəbəqədər yaşlı uşaqların daha çox psixoloji cəhətdən öyrənilməsinə həsr olunmuşdur. Mənəvi tərbiyə probleminə həsr olunan ədəbiyyatların isə bir qismi məktəblilərin mənəvi tərbiyəsi ilə məhdudlaşmışdır.

"*Uşaq bağçası proqramlarında mənəvi tərbiyə probleminin qoyuluşu*" adlanan ikinci yarımfəsildə mənəvi tərbiyə baxımından təhlilə cəlb edilmiş bütün uşaq bağçaları proqramlarında mənəvi tərbiyənin qoyuluşuna münasibət bildirilmişdir. Bu proqramların böyük əksəriyyəti Sovetlər İttifaqı dövründə hazırlandığı üçün onların ideoloji cəhətdən qüsurlu olduqları da qeyd edilmişdir.

Son proqram olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 16 iyul tarixli, 137 nömrəli qərarı ilə təsdiq edilmiş "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı"na əsasən hazırlanan məktəbəqədər təhsil proqramında (kurikulumunda) məktəbəqədər yaşlı uşaqların ilkin həyati bacarıq və vərdişlərə yiyələnməsi tələb olunur, onlara gələcək həyat fəaliyyətində lazım olacaq bacarıq və vərdişlərin aşılanması, qabiliyyətlərin formalaşması ön plana çəkilir.

Məktəbəqədər təhsilin proqramında (kurikulumunda) uşaqların mənəvi tərbiyəsi məsələləri də vacib vəzifələrdən biri kimi verilmişdir (uşaqlarda vətənə məhəbbət, millətinə, dilinə, dövlət rəmzlərinə, Azərbaycan xalqının, həmçinin digər xalqların milli-mənəvi dəyərlərinə hörmət hissinin yaranması və inkişafı).

Bunları nəzərə alaraq məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin elmi-pedaqoji əsaslarının sistemə salınması yarımfəsildə ətraflı surətdə ilə diqqətə çatdırılır.

İkinci fəslin – üçüncü yarımfəsli *"Problem baxımından uşaq bağçalarında mövcud vəziyyətin təhlili"* adlanır. Bu yarımfəsildə uşaq bağçalarında mövcud vəziyyətin təhlili verilir. Burada məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin məzmununu əhatəli şəkildə açmaq, uşaqlara yüksək mənəvi keyfiyyətlərin aşılanması texnologiyalarını üzə çıxarmaq, onlarda ən ali insani keyfiyyətlərin formalaşdırılması yollarını düzgün müəyyənləşdirməkdən ötrü mövcud vəziyyəti öyrənməyin vacibliyi ön plana çəkilir və respublikamızın şəhər və kənd rayonlarında fəaliyyət göstərən uşaq bağçalarında məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin təşkili vəziyyəti öyrənilir.

Yarımfəsildə eksperimental işin birinci mərhələsində Bakı şəhərinin məktəbəqədər təhsil müəssisələri ilə yanaşı, regionlardakı şəhər və qəsəbə uşaq bağçalarının rəhbərlərinin də iş planlarında mənəvi tərbiyə probleminin qoyuluşunun vəziyyətini öyrənməklə bağlı işlər öz əksini tapır.

Təhlillər göstərdi ki, məktəbəqədər təhsil müəssisələri rəhbərləri uşaq bağçalarında tərbiyə işlərini planlaşdırarkən mənəvi tərbiyəni tam əsaslarla, yəni elmi-pedaqoji-metodik istiqamətlərə uyğun planlaşdırmırlar. Səbail və Nərimanov rayon məktəbəqədər təhsil müəssisələri istisna olmaqla qalan bütün şəhər bağçalarının ondan birində mənəvi tərbiyənin planlaşdırılması qismən təşkil edilir.

Uşaq bağçalarında mənəvi tərbiyənin təşkili ilə bağlı apardığımız sorğuda alınan cavabları araşdırıb, təhlil etdikdən sonra məlum oldu ki, mənəvi tərbiyəni iş planlarında nəzərə almayan uşaq bağçalarında mənəvi tərbiyənin qismən də olsa təşkilinə səy göstərmişlər. Belə ki, Səbail və Nərimanov rayon uşaq bağçalarında mənəvi tərbiyəni qismən təşkil edən müəssisələrin sayı 3, Binəqədi və Yasamal rayonlarında mənəvi tərbiyəni qismən də olsa təşkil etməyə səy göstərən məktəbəqədər təhsil müəssisələrinin sayı 2 olmuşdur.

Sumqayıt, Gəncə, Şəki, Zaqatala, Şirvan, Şamaxı, Mingəçevir, Salyan, Masallı və Lənkəran rayon uşaq bağçalarında fəaliyyət göstərən tərbiyəçilərin mənəvi tərbiyə sahəsindəki biliklərini, səriştə və təcrübələrini öyrənmək məqsədi ilə onlarla aşağıdakı məzmunda anket sorğusu keçirdik:

1. Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsi deyəndə nə başa düşülür?

2. Uşaqların əxlaqi sifətləri hansılar hesab olunur?

3. Ədalətlilik və haqq işi görməklə bağlı uşaqlara hansı örnəklərdən nümunə gətirmək məqsədəuyğun hesab olunur?

4. Halallıqla bağlı uşaqlar üçün hansı məzmunda tədbirlər hazırlamaq məqbul sayılır?

5. Vətənsevərlik, vətənin sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü qorumağı uşaqlara hansı nümunələr əsasında aşılamaq olar?

6. Torpaqlarımızın müqəddəsliyi uğrunda şəhid olmağın şərəfli bir iş olmasını uşaqlara necə aşılamaq olar?.

7. "Torpaq əgər uğrunda ölən varsa Vətəndir!" devizi altında kütləvi tədbiri necə keçirmək olar?

8. Qocalara, xəstələrə, əlsiz-ayaqsızlara, imkansızlara kömək etmək, əl tutmaq, pay vermək kimi mənəvi keyfiyyətləri uşaqlara hansı yollarla aşılamaq olar?

Cavabları aşağıdakı kimi ümumiləşdirdik (cədvəl 1):

Cədvəl 1

Tərbiyəçilərin milli mənlik şüuru haqqında məlumatlılıq səviyyəsi

| № | Şəhər uşaq bağçaları üzrə | | | | | Kənd uşaq bağçaları üzrə | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Suallar | Tərbiyəçilərin sayı | Cavabların səviyyəsi | | | Suallar | Tərbiyəçilərin sayı | Cavabların səviyyəsi | | |
| | | | Yüksək | Orta | Aşağı | | | Yüksək | Orta | Aşağı |
| 1 | I | 57 | 7 | 14 | 36 | I | 23 | 2 | 3 | 18 |
| 2 | II | 57 | 6 | 12 | 76 | II | 23 | 2 | 3 | 18 |
| 3 | III | 57 | 6 | 12 | 77 | III | 23 | 1 | 2 | 20 |
| 4 | IV | 57 | 4 | 35 | 75 | IV | 23 | 1 | 1 | 21 |
| 5 | V | 57 | 4 | 48 | 74 | V | 23 | 2 | 4 | 17 |
| 6 | VI | 57 | 5 | 45 | 76 | VI | 23 | 3 | 5 | 15 |
| 7 | VII | 57 | 8 | 40 | 75 | VII | 23 | 2 | 3 | 18 |
| 8 | VIII | 57 | 6 | 44 | 76 | VIII | 23 | 1 | 1 | 21 |

Tərbiyəçilərlə apardığımız sorğunun nəticələrini təhlil edərkən məlum oldu ki, şəhər bağçalarında əksəriyyəti ali təhsilli olan (yalnız 3-4 faizi kollec təhsili alan ) tərbiyəçilər mənəvi keyfiyyətlərin aşılanması, uşaqlarda ən ali insani keyfiyyətlərin üzə çıxarılması ilə bağlı görüləcək işlərin, həyata keçirilməsi zəruri olan tədbirlərin təşkili ilə bağlı olan sualların heç birinə yüksək səviyyəli cavablar verə bilməmişlər. Uşaqların mənəvi tərbiyəsilə bağlı nəzəri və praktik hazırlığının səviyyəsi orta olan tərbiyəçilərin sayı da çox az olmuşdur. Aşağı səviyyəli cavabların sayı isə daha çox olmuşdur

Dissertasiyanın "***Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində milli qaynaqlardan istifadə***" adlanan üçüncü fəsli üc yarımfəsildən ibarətdir. "*Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində Azərbaycan xalq yaradıcılığı nümunələrinin rolu*" adlanan birinci yarımfəslində deyilir ki, Azərbaycan xalqının özünəməxsus çox zəngin milli qaynaqları vardır. Şifahi və yazılı mənbələr şəklində mövcud olan bu milli qaynaqlar içərisində məktəbəqədər yaşlı uşaqların mənəvi keyfiyyətlərinin formalaşmasında mühüm və əvəzsiz rol oynayanlardan birincisi və ən başlıcası şifahi xalq yaradıcılığı nümunələri hesab olunur. Şifahi xalq yaradıcılığı nümunələri içərisində bayatılar, laylalar, oxşamalar, nazlamalar, atalar sözləri, məsəllər, zərbi-məsəllər, tapmacalar, nəsihətlər, alqışlar, qarğışlar, yanıltmaclar, rəvayətlər, nağıllar, dastanlar, aşıq şerinin müxtəlif formaları uşaqların mənəvi tərbiyəsinin inkişafında misilsiz əhəmiyyət kəsb edir.

Ulu Öndər Heydər Əliyevin yetişən nəslin mənəvi tərbiyəsi ilə bağlı konsepsiyası məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçilərin qarşısında mühüm vəzifələr qoyur.

Dissertasiyada əsaslandırılır ki, milli mənlik şüuru hər bir millətin varlığının, milli özünüidarə və özünütəsdiqinin, milli ləyaqətinin və ümumbəşəri keyfiyyətlərinin məcmusudur.Milli şüurun formalaşması vətənə, doğma yurda məhəbbət yaradır. Milli mənlik şüuru, milli özünüdərk vətənlə, torpaqla, mədəniyyət və incəsənətlə bağlı gerçəkliyin təzahürü olub, sosial-iqtisadi, mədəni və mənəvi mühitin qavranılması, dərk edilməsi və təsdiqidir. Fəal, ictimai varlıq olan şəxsiyyət Vətəni, milləti, torpağı hiss və duyğuları, təfəkkürü vasitəsilə özününküləşdirir. Milli mənlik şüuru formalaşmış və tərbiyə olunmuş uşaqlar öz xalqının mənəvi sərvətlərinin tarixi inkişaf xüsusiyyətlərini, sosial-etnik cəhətlərini bütün dolğunluğu ilə dərk edir, onlarla bağlı bu və ya digər hadisəyə

qiymət verirlər. Məhz bu istiqamətdə təlim-tərbiyə işlərinin sistemli və ardıcıl aparılması gələcəkdə gənclərdə milli-etnik qrupa mənsub olmaq hissinin daha da dərinləşməsinə səbəb olur. Yarımfəsildə bu məsələlər xüsusi vurğulanır.

Bədii yaradıcılıq nümunələrinin uşaqların milli mənlik şüurunu formalaşdırmağa təsir göstərən növlərindən məşğələlərdə necə istifadə etmələrini öyrənmək üçün tərbiyəçilərlə anket sorğusu apardıq. Anket sorğusunda eksperimental bağçaların 8 tərbiyəçisi ilə yanaşı, öyrədici məşğələlərə cəlb etdiyimiz mühazirələrdə iştirak edən bağça tərbiyəçilərindən daha 12 nəfəri iştirak etdi. Anket sorğusuna aşağıdakı suallar daxil edildi:

1. Milli mənlik şüuru anlayışını şərh edin.

2. Məktəbəqədər yaşlı uşaqların milli mənlik şüuru deyəndə nə başa düşülür?

3. Azərbaycan xalqının milli mənlik şüurunu yaradan amillər hansılardır?

4. Məktəbəqədər yaşlı uşaqların milli mənlik şüurunu hansı yollarla müəyyənləşdirmək olar?

5. Milli mənlik şüurunun mənəvi tərbiyəni formalaşdıran əsas amil olmasını necə izah edərsiniz?

Cavablardan aydın oldu ki, tərbiyəçilər öyrədici materialların köməyilə nəzəri və praktik hazırlıq əldə edərək uşaqların milli mənlik şüurunun formalaşması üçün çox səmərəli iş aparmışlar. Aşağıdakı cədvələ diqqət etsək, bunu aydın görə bilərik(cədvəl 2).

cədvəl 2

Tərbiyəçilərin nəzəri və praktik hazırlağının göstəriciləri

| S/N | Suallar | Tərbiyəçilərin sayı | Cavabların səviyyəsi | | |
|---|---|---|---|---|---|
| | | | Yüksək | Orta | Aşağı |
| 1. | 1-ci sualın cavabı | 20 | 15 | 5 | - |
| 2. | 2-ci sualın cavabı | 20 | 17 | 3 | - |
| 3. | 3-cü sualın cavabı | 20 | 16 | 4 | - |
| 4. | 4-cü sualın cavabı | 20 | 15 | 5 | - |
| 5. | 5-ci sualın cavabı | 20 | 18 | 2 | - |

Cavabları təhlil edərkən məlum oldu ki, eksperimental bağçaların tərbiyəçiləri kimi, digər tərbiyəçilər də öyrədici materiallar əsasında əldə

etdikləri nəzəri və praktiki hazırlıqlar hesabına uşaqların milli mənəvi şüurunun formalaşdırılması ilə bağlı elmi, pedaqoji, psixoloji, hətta metodik cəhətdən hərtərəfli hazırlığa malik olmuşlar. Bunun nəticəsidir ki, eksperimental bağçaların tərbiyəçiləri verilən sualların hamısına qənaətedici cavablar vermişlər.

Birinci istiqamət üzrə apardığımız eksperimental işi atalar sözləri və məsəllərdən istifadə etməklə uşaqların mənəvi keyfiyyətinin üzə çıxması işinə həsr etdik. Nəticə aşağıdakı kimi olmuşdur (cədvəl 3).

Cədvəl №3

Uşaqlarda mənəvi keyfiyyətlərinin formalaşmasına atalar sözləri və məsəllərin təsiri

| Qruplar | Uşaqların sayı | Cavablar | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Eksperimentdən əvvəl | | | Eksperimentdən sonra | | |
| | | Yüksək | Orta | Aşağı | Yüksək | Orta | Aşağı |
| Eksperimental | 242 | 36 (15 %) | 54 (22 %) | 152 (63 %) | 163 (67 %) | 46 (19%) | 33 (14 %) |
| Kontrol | 241 | 37 (15 %) | 52 (22 %) | 152 (63 %) | 55 (23 %) | 61 (25 %) | 125 (52 %) |

Cədvəldən göründüyü kimi eksperimentdən əvvəl eksperimental və kontrol qruplarında uşaqların uyğun olaraq 15 faizi yüksək, 22 faizi orta, 63 faizi aşağı səviyyəli cavab vermişlər. Eksperimentdən sonra isə yüksək cavabların sayı 67 % olmuş, aşağı səviyyə isə 14 %-ə düşmüşdür. Kontrol qruplarda bu artım müvafiq olaraq yüksək səviyyədə 23 % olmuş və aşağı səviyyəli uşaqların sayında isə azalma cüzi olmuşdur. Belə nəticə isə deməyə imkan verir ki, planlaşdırdığımız eksperimental işin gedişində təbiq etdiyimiz öyrədici materiallar işçi fərziyyəmizin doğruluğunu sübut edir. Növbəti istiqamət üzrə apardığımız eksperimental işin nəticələri də yuxarıda həyata keçirilən işin rellığa uyğun olduğunu göstərir.

Biz atalar sözləri və məsəllər kimi nağılları da mənəvi keyfiyyətləri aşılamaq üzrə qruplara böldük. Cavablar aşağıdakı kimi olmuşdur (cədvəl 4).

cədvəl 4

Uşaqlarda mənəvi keyfiyyətlərinin formalaşmasına nağılların təsiri

| Qruplar | Uşaqların sayı | Cavablar | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Eksperimentdən əvvəl | | | Eksperimentdən sonra | | |
| | | Yüksək | Orta | Aşağı | Yüksək | Orta | Aşağı |
| Eksperimental | 242 | 87 (15 %) | 89 (22 %) | 66 (63 %) | 154 (64 %) | 55 (23%) | 33 (13 %) |
| Kontrol | 241 | 85 (35 %) | 87 (36%) | 69 (29 %) | 98 (41%) | 81 (33%) | 62 (26 %) |

Cədvəldən göründüyü kimi, eksperimentdən əvvəl də qruplarda bu sahədə yüksək və orta səviyyəli uşaqların sayı xeyli olmuşdur. Eksperimentdən sonra eksperimental qruplardakı yüksək səviyyəli məktəbəqədər yaşlı uşaqlar kontrol qruplardakı yüksək səviyyəli uşaqlardan 23 % çox olmuşdur. Eksperiment göstərdi ki, bu uşaqlar nağıllardakı mənəvi-əxlaqi normaları mənimsəyə bilirlər. Bu şərtlə ki, onlarla məqsədyönlü planlı və mütəşəkkil iş aparılsın. Belə işi biz laylalar üzərində davam etdirdik. Laylaları da mənəvi keyfiyyətlərin məzmununa uyğun olaraq seçib qruplaşdırdıq. Cavab aşağıdakı kimi olmuşdur (cədvəl 5).

cədvəl 5

Uşaqlarda mənəvi keyfiyyətlərinin formalaşmasına laylaların rolu

| Qruplar | Uşaqların sayı | Cavablar | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Eksperimentdən əvvəl | | | Eksperimentdən sonra | | |
| | | Yüksək | Orta | Aşağı | Yüksək | Orta | Aşağı |
| Eksperimental | 242 | 47 (19 %) | 51 (21 %) | 144 (60 %) | 128 (53 %) | 77 (32%) | 37 (15 %) |
| Kontrol | 241 | 45 (19 %) | 49 (20 %) | 147 (61 %) | 56 (23 %) | 60 (25 %) | 125 (52 %) |

Laylalar haqqında məlumatları atalar sözləri və nağılllarda olduğu kimi heç də yetərli olmamışdır. Bunun başlıca səbəbi ailədə ana-

ların bu sahəyə fikir verməməsi (uşaqlara layla deməməsi) və uşaq bağçalarında isə ona səthi yanaşılması olmuşdur.

Cədvəldən göründüyü kimi hətta eskperimentdən sonra uşaqların təxminən yarısı (53 %-i) bu sahədə yüksək bilik və məlumatlılıq göstərə bilmişlər. Kontrol qrupda isə bu səviyyə xeyli aşağı (23 %) olmuşdur.

Laylaların ardınca öyrədici eksperimenti bayatılar üzərində apardıq. Nəticə aşağıdakı kimi olmuşdur (cədvəl 6).

cədvəl 6

Uşaqlarda mənəvi keyfiyyətlərinin formalaşmasına bayatıların rolu

| Qruplar | Uşaqların sayı | Cavablar | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Eksperimentdən əvvəl | | | Eksperimentdən sonra | | |
| | | Yüksək | Orta | Aşağı | Yüksək | Orta | Aşağı |
| Eksperimental | 242 | 46 (19 %) | 58 (24 %) | 138 (57 %) | 145 (60 %) | 52 (21%) | 45 (19 %) |
| Kontrol | 241 | 47 (20 %) | 49 (20 %) | 145 (60 %) | 63 (26 %) | 62 (26 %) | 116 (48 %) |

Cədvəldən göründüyü kimi, eksperimental qruplarda sorğuya cəlb olunan 242 uşağın əksəriyyəti (60%-i) sorğunun cavablarını ətraflı şərh etmiş, onların 21%-nin şərhi isə orta səviyyəli olmuş, yalnız 19% uşaq aşağı səviyyəli cavab vermişlər. Kontrol qruplarda isə bu göstərici xeyli aşağı olmuşdur. Eksperimentdən sonra yalnız 26% uşağın cavabı yüksək olmuşdur.

Öyrədici eksperimentin növbəti mərhələsində isə biz tapmacalar üzərində iş apardıq. Mənəvi tərbiyə ilə bağlı tapmacalar seçib onları işçi fərziyyənin tələblərinə uyğun olaraq qruplaşdırdıq. Nəticə aşağıdakı kimi olmuşdur(cədvəl 7).

cədvəl 7

Uşaqlarda mənəvi keyfiyyətlərinin formalaşmasına tapmacaların rolu

| Qruplar | Uşaqların sayı | Cavablar | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | Eksperimentdən əvvəl | | | Eksperimentdən sonra | | |
| | | Yüksək | Orta | Aşağı | Yüksək | Orta | Aşağı |
| Eksperimental | 242 | 69 (28 %) | 82 (34 %) | 91 (38 %) | 143 (59 %) | 59 (24%) | 40 (17 %) |
| Kontrol | 241 | 67 (28 %) | 78 (32 %) | 96 (40 %) | 98 (41 %) | 48 (20 %) | 95 (39 %) |

Cədvəldən göründüyü kimi eksperimentdən sonra 143 uşaq (59%) yüksək, 59 nəfər isə orta səviyyəli cavab vermişlər. Cəmi 40 nəfər aşağı səviyyəlicavab vermişlər.

Eksperiment zamanı uşaqlarda bədii yaradıcılıq nümunələri üzrə aldığımız cavablar ayrı-ayrı səviyyələr üzrə (“Yüksək”, “Orta”, “Aşağı”) ümumiləşdirilmiş, eksperimental və kontrol qruplarda aparılan tədqiqat nəticəsində prosesin inkişaf dinamikası aşağıdakı kimi olmuşdur (cədvəl 8).

Cədvəl 8

Eksperimentin nəticələri

| S / N | Bədii yaradıcılıq nümunələri üzrə verilən cavablar | Uşaqların sayı (eksperi-mental qruplar) | Eksperimental qrupların cavablarının səviyyəsi | | | Uşaqların sayı (kontrol qruplar) | Kontrol qrupların cavablarının səviyyəsi | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Yüksək | Orta | Aşağı | | Yüksək | Orta | Aşağı |
| 1 | Atalar sözləri məsəllər üzrə | 242 | 163 67 % | 46 19 % | 33 14 % | 241 | 55 23 % | 61 25% | 125 52% |
| 2 | Nağıllar üzrə | 242 | 154 64 % | 55 23 % | 33 13% | 241 | 98 40% | 81 34% | 62 26% |
| 3 | Laylalar üzrə | 242 | 128 53 % | 77 32 % | 37 15 % | 241 | 56 23% | 60 25% | 125 52% |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 4 | Bayatılar üzrə | 242 | 145<br>60 % | 54<br>22 % | 43<br>18% | 241 | 63<br>26% | 62<br>26% | 116<br>48% |
| 5 | Tapmaca lar üzrə | 242 | 143<br>59 | 59<br>24 % | 40<br>17% | 241 | 98<br>41% | 48<br>20% | 95<br>39% |
| Cəmi | | 100 % | 61 % | 24 % | 15% | 100% | 31% | 26% | 43% |

Cədvəldən göründüyü kimi, eksperimental qruplarda yüksək cavabların müvəffəqiyyət faizi 61, kontrol qruplarda isə 31 faizi, orta səviyyə üzrə eksperimental qruplarda müvəffəqiyyət faizi 24, kontrol qruplarda isə 26 faizi, aşağı səviyyə üzrə eksperimental qruplarda müvəffəqiyyət15 %, kontrol qruplarda isə 43 % olmuşdur.

Beləliklə, apardığımız tədqiqat işinin nəticələri göstərir ki, xalqımızın zəngin mənəvi xəzinəsi olan bədii yaradıcılıq nümunələri məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin inkişafında mühüm əhəmiyyət kəsb edir. Bunun üçün istər uşaq bağçalarında, istərsə də ailələrdə belə nümunələrin mənəvi keyfiyyətləri daha çox üzə çıxmağa qadir olan növlərinin seçilib məktəbəqədər yaşlı uşaqlara öyrədilməsi onların mənəvi tərbiyəsinin formalaşdırılması üçün stimul yaratmış olur.Uşaq bağçalarında qrup tərbiyəçiləri və musiqi tərbiyəçilərinin gücü ilə uşaqların mənəvi keyfiyyətlərinin üzə çıxmasına təsir edən bədii qabiliyyətləri inkişaf etdirən nümunələrin seçilməsi və bu nümunələr əsasında öyrədici materialların hazırlanması uşaqların mənəvi tərbiyəsinin inkişafında xüsusi rol oynayır. Bədii yaradıcılıq nümunələrinin mənəvi keyfiyyətlər aşılayan tərəflərinin aktyorların ifasında, musiqinin müşayiətilə, xüsusilə muğamların müxtəlif ifa tərzinin köməyilə uşaqlara çatdırılması onlarda bir sıra mənəvi keyfiyyətlərin üzə çıxarılmasına şərait yaratmış olur. Bədii yaradıcılıq nümunələrinin atalar sözləri, məsəllər, nağıllar, laylalar, bayatılar və tapmacalar kimi növlərin üzərində elmi-pedaqoji-metodik cəhətdən məqsədyönlü, planlı və mütəşəkkil iş aparıldıqda məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsini günün tələbləri səviyyəsinə uyğun olaraq inkişaf etdirmək olar.

Üçüncü fəslin ikinci yarımfəsli "*Uşaqların mənəvi tərbiyəsində xalq oyunlarından istifadə*" adlanır. Bu yarımfəsildə xalq oyunlarının mənəvi tərbiyə baxımından imkanları araşdırılır.

Yarımfəsildə şərh olunur ki, məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində oyunun, xüsusilə xalq oyunlarının əvəzsiz rolu vardır. Aparılan tədqiqatların nəticəsi göstərir ki, oyun uşaq həyatının ilk anlarından başlayaraq özünəməxsus fəaliyyət sahəsinə daxil olur və bu amil onun hərtərəfli psixi, mənəvi və fiziki inkişafını şərtləndirir. Oyunun əsas xüsusiyyəti ondan ibarətdir ki, o, uşaq şəxsiyyətinin bütün cəhətlərinə toxunur, onlara fəal fəaliyyət, iradə, səy aşılanır.

Üçüncü fəslin "*Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində İslam dəyərlərindən istifadə imkanları*" adlanan üçüncü yarımfəsli islam dəyərlərilə bağlı olan tərbiyəvi fikirlərdən istifadə etməklə məktəbəqədər yaşlı uşaqlarda əxlaqi-mənəvi hisslərin yüksəldilməsi məsələlərinə həsr olunmuşdur. Bu yarımfəsildə islam dəyərlərinə dair nümunələrin məktəbəqədər yaşlı uşaqların yaş xüsusiyyətlərinə uyğun olaraq aşılanmasının elmi-pedaqoji sistemi verilir.

Dissertasiyada nümunələrə geniş yer verilmiş və onların uşaqların mənəvi tərbiyəsində imkanları və rolu əsaslandırılmışdır. Qeyd edilmiş-dir ki:

- islam dəyərlərinin materialları ilə məktəbəqədər yaşlı uşaqları yaxından tanış etmək onlarda yeni elmi dünyagörüşünün inkişafına imkan yaradır;
- islam dəyərlərinin imkanlarından məqsədyönlü, planlı və mütəşəkkil olaraq istifadə etdikdə uşaqlarda mənəvi tərbiyənin ilk bünövrəsi düzgün qoyulmuş olur;
- "Qurani-Kərim"dəki tərbiyəvi fikirlərdən, xüsusilə uşaqlarda mənəvi keyfiyyətləri üzə çıxarmağa kömək edən müqəddəs kəlamlardan uşaqların yaş, fərdi, cinsi, psixoloji və fizioloji xüsusiyyətlərinə uyğun olaraq bütün pedaqoji tələblər gözlənilməklə istifadə etdikdə onların mənəvi tərbiyəsinin formalaşdırılması üçün geniş imkanlar yaranmış olur;
- uşaq bağçalarında "Qurani-Kərim"dən götürülmüş tərbiyəvi fikirləri uşaqlara mövcud pedaqoji qaydalara əsasən öyrətdikdə onlarda inam hissi və əqidə saflığı ilə bağlı olan ən ali insani keyfiyyətlərin əsasl düzgün qoyulmuş olur;
- uşaq bağçalarında və ailələrdə uşaqlara "qurani-Kərim"dəki müqəddəs kəlamlardan istifadə etməklə aşılanan mənəvi keyfiyyətlər uşaqlarda ən yaxşı hümanist əlamətlərin üzə çıxarılmasına köməklik

göstərir və onları daim yaxşılıqlar etmək haqqında düşünməyə, pisliklərdən qaçmağa, ədalət axtarmağa sövq edir.

Dissertasiyanın "***Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin formalaşdırılması işinin sistemi***" adlanan dördüncü fəsli beş yarımfəsildən ibarətdir. Bu fəsildə tərbiyənin bütün tərkib hissələrini özündə ehtiva edən mənəvi tərbiyənin bütöv bir sistemi verilir.

Fəslin "*Məktəbəqədər yaşlı uşaqların mənəvi keyfiyyətlərə yiyələn-məsində əqli tərbiyənin rolu*" adlı yarımfəslində əqli tərbiyənin məqsəd-yönlü, planlı və mütəşəkkil inkişafının məktəbəqədər yaşlı uşaqların bir sıra mənəvi keyfiyyətlərə yiyələnməsindəki rolundan bəhs edilir.

Məktəbəqədər dövrdə uşaqları öz bilik və bacarıqlarını başqaları qarşısında nümayiş etdirməyə imkan verən fəaliyyət formaları daha çox cəlb edir. Belə halda uşaq malik olduğu məlumatlarla daha çox maraqlanır, ona oxunan və danışılan hadisələri bildiyini, müəyyən işlərin öhdəsindən gələ bildiyini ətrafdakılar qarşısında büruzə verməyə çalışır. Buna görə də müxtəlif vərdişlərin qazanılması, məlumatların mənimsənilməsi və dərk olunması imkanları get-gedə artır. Tez-tez görmək olur ki, uşaq hadisələrin bağlılığını, onların əlaqədar olub-olmadığını və əşyaların quruluşunu başa düşməyə cəhd edir. O, həyati hadisələrdən baş çıxarmaqdan ötrü tələb olunan səviyyədən daha geniş mənada bilikləri mənimsəməyə başlayır. Bu əsasda əşyavi-praktik, təsviri və quraşdırma işlərinin yerinə yetirilməsinin xarakteri də dəyişməyə başlayır. Uşaq yeni obyektləri və iş üsullarını mənimsəməyə doğru istiqamətlənir ki, bu da uşağın inkişafının keyfiyyətcə yeni səviyyəsi kimi səciyyələndirilə bilər.

Yarımfəsildə deyilənləri ümumiləşdirərək aşağıdakı qənaətə gəlmişik :

- məktəbəqədər yaşlı uşaqların əqli tərbiyəsini düzgün inkişaf etdirmək onları mənəvi keyfiyyətlərə yiyələnməyə düzgün istiqamətləndirmək deməkdir;
- ağıllı uşaqlar bütün yaxşılıqları, yaxşı əməlləri, əxlaqın bütün müsbət təzahürlərini yaxşı dərk edir, normal qavrayır və obyektiv dəyərləndirirlər. Pislikləri, əxlaqın mənfi təzahürlərini qəbul etmir onlara nifrət bəsləyirlər;
- əqli tərbiyənin məqsədyönlü, planlı və mütəşəkkil təşkili məktəbəqədər yaşlı uşaqların mənəvi keyfiyyətlərinin üzə çıxarılmasına,

inkişafına və formalaşmasına zəmin yaradır və beləliklə onların mənəvi tərbiyəsinin tənzimlənməsini stimullaşdırır.

Fəslin "*Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində milli-əxlaqi dəyərlərin yeri və rolu*" adlı ikinci yarımfəslində ilkin olaraq əxlaq sözünün etimologiyasının izahı verilir .Əxlaq alimləri tərəfindən insanın nəfsani sifətlərinin bölündüyü iki hissənin fitri (təbii); iqtisabi (kəsb edilmiş, qazanılmış və ixtiyari) məzmunu açıqlanır.

Milli-əxlaqi dəyərlərin rolunun şərhindən sonra yarımfəsildə belə bir ümumiləşdirmə aparılır ki, məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin üzə çıxarılıb inkişaf etdirilməsində milli-əxlaqi dəyərlərin rolu böyükdür. Ona görə də onların mahiyyəti, məzmunu, məqsəd və vəzifələri haqda valideynlərin və tərbiyəçilərin ən zəruri nəzəri biliklərə malik olmaları çox vacibdir.

Fəslin "*Yaş xüsusiyyətləri üzrə mənəvi keyfiyyətlərin formalaşdırılması*" adlı yarımfəslində göstərilirki ki,məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində rol oynayan adət-ənənlərin onların yaş dövrlərinə uyğunlaşdırılması elmi-pedaqoji cəhətdən çox mühüm əhəmiyyət kəsb edir. Ona görə də adət-ənənələrin uşaqlara təlqin edilməsi işində uşaqların yaş xüsusiyyətlərinin və bu işin təşkili zamanı aşağıdakı şərtlərin nəzərə alınamsı vacib hesab edirik:

1. Adət-ənənələri yaş dövrlərinə uyğun olaraq təsnif edərkən onlar adətlərə və ənənələrə ayrılaraq qruplaşdırmalıdır.

2. Uşaqların yaş dövrlərinə görə qruplaşdırılmış adətlərin və ənənələrin hər birinin mənəvi tərbiyə baxımından mahiyyəti aydınlaşdırılmalıdır.

3. Uşaqların yaş dövrlərinə uyğun olaraq seçilmiş adət-ənənlərin hər birinə ayrı-ayrılıqda kütləvi tədbirlərin həsr edilməsi mənəvi keyfiyyətlərinin üzə çıxarılmasında daha böyük səmərə verə bilər.

4. Uşaqların yaş dövrlərinə uyğun olaraq seçilmiş adət-ənənlərin hər birinə ayrı-ayrılıqda həsr edilmiş kütləvi tədbirlərin ssenariləşdirilməsi, ssenari üzrə keçirilməsi, sonda isə müzakirə olunaraq mənəvi tərbiyə baxımında səmərəliliyinin müəyyənləşdirilməsi çox faydalıdır.

İrəli sürdüyümüz işçi fərziyyənin elmi müddəalarına uyğunluğunu öyrənmək məqsədilə apardığımız eksperimental işdə alınan nəticəni əvvəlcədən kontrol bağçalar kimi müəyyənləşdirdiyimiz ilə müqayisə etmək qərarına gəldik. Bakı şəhərinin 22, 59, 110, 266 saylı uşaq bağçalarında məqsədyönlü, planlı və mütəşəkkil eksperimental işlər

aparıldı. 32, 111, 235, 311 və saylı uşaq bağçalarında kontrol qrup yaradıldı. Nəticə aşağıdakı kimi olmuşdur (cədvəl 9).

Cədvəl 9.

Mənəvi tərbiyənin inkişaf səviyyəsi

| Qruplar | Uşaqların sayı | Mədəni davranış səviyyəsi nümayiş etdirdi | Xeyirxahlıq nümayiş etdirdi | Vətənə məhəbbət nümayiş etdirdi | Böyüklərə hörmət nümayiş etdirdi | Yaşıdları və özündən kiçiklərə məhəbbət nümayiş etdirdi | Dini dəyərlərə münasibət nümayiş etdirdi |
|---|---|---|---|---|---|---|---|
| Eksperimental | 83 | 68 | 58 | 71 | 73 | 66 | 53 |
| Kontrol | 82 | 37 | 26 | 31 | 32 | 20 | 23 |

Cədvəldən göründüyü kimi, eksperimental qrupun uşaqlarının mədəni davranış səviyyəsi kontrol qrupun uşaqlarından çox yüksək olmuş, onlar xeyirxahlıq, vətənə məhəbbət, böyüklərə hörmət, öz yaşıdlarına, özlərindən kiçiklərə, hətta dini dəyərlərə kontrol qrupların uşaqlarına nisbətən daha yüksək münasibət nümayiş etdirmişlər. Müşahidələrimiz göstərir ki, tədbirdən sonrakı vaxtlarda belə uşaqlar evdə, küçədə, qonşuda, ayrı-ayrı məclislərdə həmin mənəvi keyfiyyətləri bu və ya digər dərəcədə nümayiş etdirməyə can atırlar. Hətta bəzi uşaqlar həmin mənəvi keyfiyyətləri ətrafındakı həm öz yaşıdlarına, həm özündən kiçiklərə, hətta özündən böyüklərə təlqin etdirməyə cəhd göstərirlər. Burada vətənpərvərlik hisslərinin aşılanmasına xüsusi diqqət yetirilmişdir.

Dissertasiyada məktəbəqədər yaşlı uşaqlarda vətənpərvərlik hissi aşılamaq üçün aşağıdakı bir sıra zəruri vəzifələrə diqqət yetirilmişdir:

1) uşaqlarda kiçik yaşlardan başlayaraq Vətənimizin gözəlliyi, milli-mənəvi dəyərləri, qəhrəman oğul və qızlarımızı, görkəmli simaları barədə ilkin təsəvvür yaratmaq və onlara məhəbbət hissi formalaşdırmaq;

2) məktəbəqədər yaşdan başlayaraq uşaqlara Vətənimizin ərazi bütövlüyünü və sərhədlərimizin toxunulmazlığını təlqin etmək;

3) vətənimizdə yaşayan bir sıra xalqlara məhəbbət və rəğbət hissi aşılamaq;

4) kiçik yaşlardan başlayaraq vətənimizi inkişaf etmiş ölkələr səviyyəsinə qaldırmaq üçün var gücü ilə oxumağı, işləməyi, çalışmağı və mübarizə etməyi təlqin etməli;

5) məktəbəqədər yaşdan uşaqlarda Vətənimizin düşmənlərinə, millətçilərə, şovinistlərə, erməni faşistlərinə qarşı nifrət, Vətənimizi düşmənlərdən qorumaq hissi tərbiyə etmək.

Eksperiment nəticəsində bedə bir nəticəyə gəlinmişdir ki, tərbiyəçi məktəbəqədər yaşlı uşaqlarda vətənə məhəbbət, onu qorumaq və müdafiə etmək üçün bir sıra zəruri vəzifələri yerinə yetirməlidir:

Dördüncü fəslin üçüncü yarımfəslində məktəbəqədər yaşlı uşaqların mənəvi keyfiyyətlərinin formalaşmasında əmək tərbiyəsinin rolundan bəhs olunur. Burada şərh olunur ki məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin inkişafında onlara bir sıra əmək vərdişləri aşılanmasının da çox mühüm əhəmiyyəti vardır. Hər bir adamı əməksevərliyə istiqamətləndirmək, əməyə şüurlu münasibət bəsləməyə alışdırmaq onun gələcək həyatının bünövrəsinin düzgün qoyulması kimi dəyərləndirilməlidir.

Dördüncü fəslin "*Estetik hisslərin və bədii qabiliyyətlərin inkişaf etdirilməsi məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin vasitəsi kimi*" adlanan dördüncü yarımfəslində məktəbəqədər yaşlı uşaqlara estetik-bədii zövq aşılamaqla, onların bədii yaradıcılıq qabiliyyətlərini üzə çıxarmaqla onların mənəvi tərbiyəsinin inkişaf etdirilməsindən bəhs edilir. Yarımfəsildə göstərilir ki, mənəviyyat cəmiyyətdə bərqərar olmuş əxlaqi normalarla fərdin daxili tələbatları arasındakı qarşılıqlı təsirin nəticəsidir. "Mən"in quruluşu keyfiyyətlərin təsiri ilə xüsusi məzmun alır. Geniş anlayış olan mənəvi tərbiyə əxlaqi təmizlik, fiziki hazırlıq, estetik-bədii zövqə malik olmaq, etik normalara hörmət etmək, milli mənlik şüuru kimi komponentləri özündə səciyyələndirir. İnsan həmişə və hər yerdə özəlliyə, ahəngdarlığa, zərifliyə, səmimiliyə can atır. İnsan dünyaya gələn vaxtdan onda dünyaya qarşı bədii münasibət bəsləmək, təbiət və cəmiyyət gözəlliyindən zövq almaq qabiliyyəti inkişaf edir. Bu, özünü estetik tələbat kimi göstərir. Məktəbəqədər təhsil müəssisələrində, ailələrdə uşaqların estetik-bədii zövqlərinin formalaşdırılması işi düzgün qurularsa, bu sahədə təşkil edilən tədbirlər elmi-pedaqoji və metodik tələblərə cavab verərsə uşaqların mənəvi cəhətdən saflaşdırılması öz həllini tapa bilər.

*"Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin formalaşmasında fiziki mədəniyyətin təsir imkanları"* adlanan beşinci yarımfəslində aşağıdakı məsələlər əhatə olunmuşdur.

1.Uşaqları idman təmrinlərinə alışdırmaqla yanaşı onlarda Vətənə, doğma torpağa, mənsub olduğu xalqa, dövlətin atributlarına hörmət hissi aşılamaq.

2.Fiziki tərbiyə məşğələlərini elə qurmaq lazımdır ki, uşaqlar həm də, xalqımızın tarixi və mədəni irsi ilə hərtərəfli tanış ola bilsinlər.

3.Fiziki tərbiyə ilə bağlı yarışları elə təşkil etmək lazımdır ki, onlar uşaqların milli mənlik şüurunu və milli iftixar hisslərini yüksəltmiş olsun.

4.Hərbi -vətənpərvərlik tədbirlərini mütəmadi olaraq keçirməklə uşaqların milli Orduya, Azərbaycanın Milli Qəhrəmanlarına, Vətənin keşiyində duran əsgər və zabitlərə hörmət və rəğbət hisslərini qüvvətləndirmək.

5.Uşaqlarda düşmənə nifrət, qəzəb hissi aşılamaq üçün onları davamlı vərdişlərə yiyələndirmək.

Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində fiziki hazırlığı vərdiş və adətə çevirmək üçün onları ulu əcdadlarımızın qəhrəmanlıq tarixləri ilə düzgün tanış etmək lazımdır. Uşaqlar bu qəhrəmanlıqların səbəblərini biləndən sonra ona inanırlar. Bu səbədən yarımfəsildə məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində fiziki mədəniyyətin roluna dair praktik nümunələr verilir.Uşaqların yaş, qavrama və anlaq səviyyəsinə uyğun olan bu nümunələr həm də nağıl, didaktik oyun personajları vasitəsilə uşaqlara çatdırılmasından da yarımfəsildə bəhs olunur. Məhz bu nümunələr uşaqların fiziki sağlamlığını təmin etməyin fonunda onların mənəvi keyfiyyətlərinin üzə çıxarılıb inkişaf etdirilməsinə zəmin yaradır.

Dissertasiyanın beşinci fəsli "***Uşaqların mənəvi tərbiyəsində məktəbəqədər təhsil müəssisələri ilə ailənin birgə işi***" adlanır. İki yarımfəsildən ibarət olan bu fəslin birinci yarımfəsli ailələrin məktəbəqədər yaşlı uşaqlara mənəvi keyfiyyətlərin aşılanması imkanlarından bəhs edir. *"Ailə uşaqlarda mənəvi keyfiyyətlərin formalaşmasının əsası kimi"* adlanan bu yarımfəsildə ənənəvi olaraq tərbiyənin ilk və əsas institutu hesab olunan ailədən danışılır.

Ailənin uşağa təsiri spesifikdir və bir sıra xüsusiyyətlərə malikdir. Dissertasiyada bu xüsusiyyətlərin izahına geniş yer verilir.

Göstərilir ki bu xüsusiyyətlər uşaqların mənəvi tərbiyəsinə təsir göstərir. Bunu nümunəvi ailə kimi tanıdığımız ailələrin valideynləri ilə apardığımız anket sorğusunun nəticələri də sübut edir. 150 nəfər valideynlərlə aşağıdakı suallar əsasında apardığımız anket sorğusuna diqqət yetirək:

1.Siz övladınızda hansı mənəvi keyfiyyətləri görmək istəyirsiniz?

2.Mənəvi keyfiyyətlərin tərbiyəsində qarşılaşdığınız çətinliklər?

3.Siz övladınızın mənəvi tərbiyəsində xoşagəlməz halların əmələ gəlməməsi üçün nə kimi təkliflər verərdiniz?

Birinci suala cavab verən valideynlərin 50%-dən çoxu mehribançılığı, doğruçuluğu, vətənə, ana-ataya bağlılığı ön planda göstərmişlər.

Uşaqların mənəvi tərbiyəsində bəzi boşluqların səbəblərini isə onlar bəzi valideynlərin pedaqoji-psixoloji biliklərə malik olmamasında görmüşlər.

Üçüncü suala cavab verərkən valideynlər göstərirlər ki, məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsindəki bəzi boşluqlar uşağın düşdüyü mühitlə – televizorda uşaqların yaş xüsusiyyətləri nəzərə alınmadan verilən kinofilmlər, digər verilişlər və bəzi yaşlıların hərəkət və davranışındakı xoşagəlməz xüsusiyyətlərlə bağlıdır. Yarımfəsildə həmçinin irəli sürülən elmi müddəaları, pedaqoji ideyaları özündə səciyyələndirən müsbət ailə təcrübəsi də yer almışdır.

Dissertasiyanın və beşinci fəslin son yarımfəsli, "*Məktəbəqədər təhsil müəssisələrinin ailə ilə birgə iş formalarаı*" adlanır. Bu yarımfəsildə məktəbəqədər təhsil müəssisələrinin ailə ilə qarşılıqlı əlaqəsindən söhbət açılır. Göstərilir ki, məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində mühüm yerlərdən birini də məktəbəqədər təhsil müəssisələrinin ailə ilə qarşılıqlı əlaqəsi tutur. Lakin hər ailə uşaqla qarşılıqlı təsir kompleksini tam şəkildə həyata keçirə bilmir. Bunun isə səbəbləri müxtəlifdir; bəzi ailələr uşağa tərbiyə vermək istəmir, başqaları bunu bacarmır, digərləri, bunun onlara nə üçün lazım olduğunu anlamırlar və s. Hər bir halda məktəbəqədər təhsil müəssisələrinin peşəkar köməyi lazımdır.

Valideynlərin pedaqoji savadlılıq səviyyəsini qabaqcadan bilmək lazımdır. Yüksək, orta və hətta aşağı səviyyələrə də rast gəlmək olur. Bundan asılı olaraq pedaqoq, tərbiyəçi yüksək və orta səviyyəli valideynlər üçün məsləhət saatı hazırlayarkən qrup formasını seçməli, aşağı səviyyəli valideynlər üçün məsləhətlər, tapşırıqlar, valideynlərə suallar,

bu ailənin problemlərinin müştərək analizi formasında fərdi məsləhət saatları təyin etməlidir.

Dissertasiyada məktəbəqədər təhsil müəssisəsinin ailə ilə ənənəvi və qeyri ənənəvi əlaqə formalarına geniş yer verilmiş və onların xüsusiyyətləri açıqlanmışdır. Üç mərhələdən ibarət olan "etibarlı işgüzar əlaqə" formasına diqqət edək:

I mərhələ – valideynlərə, uşağının müsbət obrazının nümayiş etdirilməsi. Bunun üçün valideynlərlə maraqlanmaq, onları dinləməyi, onları maraqlandıran sualları müzakirə etməyi bacarmaq lazımdır;

II mərhələ – valideynlərə, pedaqoji biliklərin nümayiş etdirilməsi (uşaqlarının diaqnostikasının məlumatları);

III mərhələ – uşaqlarının tərbiyə və inkişaf etdirilməsi işi üzrə valideynlərlə sıx qarşılıqlı təsir.

Qarşılıqlı təsirin nəticəsi, məktəbəqədər təhsil müəssisələri bir sistem olaraq birgə fəaliyyətin aşkarlığı üzərində qurulan müsbət, səmimi münasibətlər olmalıdır.

"Uşaq – uşaq bağçası" sistemində iki sosial institutun – məktəbəqədər müəssisələrinin və ailənin qarşılıqlı təsiri mövcuddur. Onların tərbiyəvi funksiyaları fərqli olsa da, uşağın hərtərəfli inkişafı üçün onların qarşılıqlı təsirə girmələri zəruridir. Uşaqları məktəbəqədər təhsil müəssisələrində tərbiyə olunan 65 nəfər valideynlə "Siz mənəvi tərbiyəyə təsir göstərə biləcək amillərdən hansına üstünlük verirsiniz?" sualına aldığımız cavablar bu baxımdan maraq doğurur (cədvəl 10).

Cədvəl 10

Valideynlərə görə mənəvi tərbiyəyə təsir göstərən amillər

| Valideynlərin sayı | Ekskursiya, gəzinti | KİV | Nümunə | Dini dəyərlərdən istifadə | Söhbətlər | Oyunlar | Uşaqlara kitablar oxumaq |
|---|---|---|---|---|---|---|---|
| 65 | 7 | 5 | 14 | 8 | 17 | 8 | 6 |

Cədvəldən göründüyü kimi, valideynlərin çoxu birinci yeri (17 nəfər) uşaqlarla edilən söhbətlərə, İkinci yeri nümunəyə vermişlər (14 nəfər). Bizcə bunlar da valideynlərin özlərinin tərbiyə üsullarından, tərbiyə örnəklərinin hansından daha çox istifadə etmələri ilə bağlıdır. Üçüncü yeri isə dini dəyərlərə və oyunlara vermişlər.

Dissertasiyada uşaq bağçası ilə ailənin uşaqların mənəvi tərbiyəsi sahəsində əlbir işinin aşağıdakı istiqamətlərdə reallaşması məqsədəuyğun hesab edilmişdir:

- uşaq bağçası tərbiyəçisinin valideynlərlə pedaqoji səpkidə söhbət və məsləhətlər aparması;
- ailə ilə uşaq bağçasının birgə işinin təşkilinin səmərəli forma və yollarının axtarıb tapılması və həyata keçirilməsi;
- uşaqlarda mənəvi keyfiyyətləri formalaşdırmaq üçün fərdi yanaşma prinsipindən istifadə edilməsi;
- uşaqlarda ətraf mühit və real cəmiyyət haqqında təsəvvürlərin dərinləşdirilməsi;
- informasiya və kommunikasiya vasitələrindən geniş istifadə edilməsi.

Böyüməkdə olan nəslin, mənəvi aləminin formalaşmasında milli və ümumbəşəri ideyaların əsasında keçirilən tədbirlərin böyük əhəmiyyəti vardır. Tədbirlər uşaqları həyatın məqsəd və mənasını düzgün başa düşməyə yönəldir. Tərbiyəçilər bu vəzifəni müxtəlif vasitə və metodlardan istifadə etməklə yerinə yetirirlər.

**Tədqiqatın aşağıdakı nəticələri alınmışdır:**

1.Mənəvi tərbiyə böyüyən nəslin vətəndaş, şəxsiyyət və həqiqi insan, Azərbaycan xalqının layiqli övladı kimi formalaşmasının əsasını təşkil edir. Tərbiyənin bütün tərkib hissələrini özündə birləşdirən mənəvi tərbiyənin əsası məktəbəqədər yaş dövründə ailədə və məktəbəqədər təhsil müəssisəsində nə qədər hərtərəfli təşkil edilərsə, elmi əsaslar üzərində reallaşarsa uşağın sonrakı inkişaf mərhələlərində tərbiyə prosesi məzmunlu və kompleks şəkildə həyata keçirilə bilər.

2. Pedaqogika müstəqil bir elm kimi meydana gəlməzdən çox-çox əvvəl tərbiyə, onun tərkib hissələri, üsulları, vasitələri və s. məsələləri üzrə təcrübə və fikirlər xalq mədəniyyətinin üzvi tərkib hissəsi kimi yaranmağa başlamışdır. Həmin təcrübə və fikirlər zaman-zaman zənginləşmiş və ən qiymətli sərvət kimi müxtəlif mənbələrdə (o cümlə-

dən folklor nümunələrində, etnoqrafik materiallarda, tarixi sənədlərdə, maddi-mədəniyyət abidələrində, adət-ənənələrdə, ayin və mərasimlərdə) hifz olunaraq gəlib bu günümüzə çatmışdır. Uşaqların mənəvi tərbiyəsində bunlar əvəzsiz mənbələrdir. Bu mənbələrə müraciət edərək orada olan müsbət keyfiyyətləri seçib bugünki nəslin təlim-tərbiyəsinə tətbiq etmək günün ən vacib və aktual problemlərindən biridir.

3.Uşaqların tərbiyəsində hələ lap körpə vaxtlardan bəri analarından, nənələrindən eşitdikləri laylalar, oxşamalar, əzizləmələr, tapmacalar, nağıllar və s. xalq yaradıcılığı nümunələri sonrakı həyat və fəaliyyətlərində başlıca əhəmiyyətə malik olmaqla onları həm öz ana dilinin incəliklərini, gözəlliklərini sevərək qiymətləndirməyə, qiymətlən-dirərək duymağa qabil olan insan, həm də ən ali insani keyfiyyətlərə malik olan şəxsiyyət kimi yetişdirməyə imkan verir.

4. Uşaqlarda vətənpərvərlik, Vətən uğrunda canını əsirgəməmək hissi tərbiyə etmək işində, böyüklərə hörmət, ataya-anaya məhəbbət hissinin aşılanmasında xalq hikmətləri ilə yanaşı, onlarla mənəvi tərbiyənin bütün istiqamətləri üzrə kompleks təlim-tərbiyə işlərinin aparılması zəruridir. Uşaq nəyə və niyə hörmət etməyi bilməlidir. Əgər biz uşaqlarda müsbət keyfiyyətlər tərbiyə etmək istəyiriksə bu keyfiyyətlərin faydası onların nəzərinə bütün xırdalıqları və incəlikləri ilə çatdırılmalıdır.

5. Mənəvi idealların tənəzzülə uğradığı, keçmişin tərəqqi adət və ənənələrinin qismən unudulduğu, həyatın bir çox sahələrində dərin dəyişikliklərin baş verdiyi zamanda təhsili, təlim-tərbiyəni demokratikləşdirmənin, humanistləşdirmənin, məzmunca zənginləş-dirmənin və xəlqiləşdirmənin ən mühüm yollarından biri – onu əsrlərin sınağından çıxmış xalq təcrübəsi zəminində yenidən qurmaqdır. Xalq tərbiyəsinin mütərəqqi ənənələrini canlandırmaq, bərpa etmək və cəmiyyətin xidmətinə vermək dövrün tələbidir. Bu tələb əsasında xalq tərbiyəsinin mütərəqqi ənənələrinin uşaqların yaş dövrlərinə, anlaq səviyyəsinə uyğunlaşdırılaraq onlara təqdim olunması onların mənəvi saflığını təmin etmiş olur.

6. Respublikamızın uşaq bağçalarında məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində milli qaynaqlardan istifadənin müxtəlif formalarından kompleks şəkildə istifadə olunması uşaqlarda çox parlaq, təsirli hisslərin yaranmasına imkan verir, müsbət emosiyalar, həyəcan oyadır, onlarda əxlaqi şüurun, milli ləyaqət hissinin ilkin rüşeymləri cücərməyə

başlayır. Uşaqlarda vətənə məhəbbət, yaşlılara hörmət, balacalara qayğı, ata-anaya sonsuz sevgi hissləri və s. inkişaf edir.

7. Uşaq bağçalarında, həmçinin ailələrdə uşaqların mənəvi tərbiyəsində xalqımızın min illər boyu yaşatdığı və bu gün mənəvi tərbiyə işində böyük imkanları olan islam əxlaqı nümunələrindən geniş istifadə edilməsi olduqca vacibdir. Xalqımızın qan yaddaşında olan belə dəyərlər kiçik yaşlı uşaqların tərbiyəsində misilsiz mənbələrdir. Belə mənəvi dəyərlər uşaqlarda həlimlik, ürəyiyumşaqlıq, canıyananlıq, yardım etmək, pay vermək, şəfqət göstərmək kimi keyfiyyətləri üzə çıxarır.

8. Xalq oyunları həmişə tərbiyə vasitəsi olmuş və bu gün də bu missiyanı özündə daşıyır. Mənəvi tərbiyə imkanları ilə zəngin olan belə nümunələrin seçilməsi, uşaqların yaş xüsusiyyətlərinə uyğunlaşdırılaraq tərbiyə prosesində onlardan istifadə edilməsi uşaqlarda əxlaqi, estetik, fiziki tərbiyənin inkişafında, bütövlükdə isə mənəvi tərbiyə sahəsində bilik, bacarıq və vərdişlərin habelə adətlərin yaranmasında mühüm rola malik olduğundan tərbiyə prosesində onlara geniş yer verilməsi zəruridir.

9. Mənəvi tərbiyənin əsasında dayanan əqli tərbiyə həmişə geniş imkanlara malik olmuşdur. Başlıca məsələ bu imkanlardan səmərəli və hərtərəfli istifadə edilməsi olduğundan valideynlər, tərbiyəçilər, musiqi rəhbərləri bu potensialdan maksimum yararlanmağa çalışmalıdırlar. Əqli tərbiyə ilə bağlı həyata keçirilən hər bir məşğələdə mənəvi tərbiyə xətti əsas götürülməli, təlimin, didaktik məşğələlərin imkanlarından geniş istifadə edilməlidir.

10. Əxlaq tərbiyəsi mənəvi tərbiyənin tərkib hissələrindən biri kimi, uşaq aləmi, uşaq mənəviyyatı ilə bağlı materiallarla və fəaliyyət növlərilə zəngindir. Tərbiyə prosesində bunlardan istifadə etmək uşaqların mənəvi aləmini daha da zənginləşdirir və onları həyati biliklərlə, insan mənəviyyatı üçün zəruri olan milli və ümumbəşəri dəyərlərlə tanış edir, onların ruhi aləmini, mənəviyyatını cilalandırır, əxlaq, mənəviyyat haqqında ilkin biliklərə yiyələndirir.

11. Mənəvi tərbiyənin həm vasitələrindən, həm də tərkib hissələrindən biri hesab edilən əmək tərbiyəsi uşaqlarda əməyə, əmək adamlarına hörmət və məhəbbət hissinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Insan mənəviyyatının, mənəvi yetkinliyinin bir cəhəti də onun əməksevərliyi, əməyə müsbət və vicdanlı münasibətin olduğunu nəzərə alan tərbiyəçilər əməyin həm tərbiyəvi, həm də psixi imkanlarından

səmərəli istifadə etməyi bacarmalıdırlar. Belə bacarıq-lardan istifadə uşaq mənəviyyatını daha da zənginləşdirməklə nəticələnir.

12. Uşaq mənəviyyatının gələcək inkişafında onların estetik aləminə nüfuz edilməsi, onlarda estetik zövqün, bədii qabiliyyətlərin təşəkkülü və inkişafına nail olunması, uşaqların ətraf aləmi düzgün dərk etməsinə, gözəllikləri duyub qavramasına, onları obyektiv qiymətləndirməsinə əlverişli təsir göstərir. Buna görə də ailədə və uşaq bağçalarında uşaqların estetik aləmlərinin qayğısına qalmaq olduqca mühüm əhəmiyyət daşıyır.

13. "Sağlam bədəndə sağlam ruh olar" deyimini yaddan çıxarmamaqla məktəbəqədər yaşlı uşaqlarla aparılan fiziki tərbiyə işləri onların mənəviyyatına da güclü təsir göstərir və mənəvi tərbiyənin inkişafında mühüm yer tutur. Uşaqlarla bu istiqamətdə işlərin düzgün aparılması onların təkcə sağlam böyüməlarinə deyil, həm də gümrah olmalarına, öz güclərinə inam bəsləmələrinə səbəb olur. Beləliklə, uşaqların fiziki mədəniyyətinin formalaşdırılması onlarda bir sıra mənəvi keyfiyyətlərin üzə çıxmasına səbəb olur.

14. Mənəvi tərbiyənin əsası ailədə qoyulur. Ailə uşaqların ilk beşiyi olduğu kimi, mənəvi tərbiyənin də ilk formalaşdığı sosial institutdur. Burada münasibətlərin düzgün qurulması, uşaq həyatının düzgün təşkili uşaqların mənəvi tərbiyəsinin formalaşmasında əsas yer tutur. Uşaq həyatının müxtəlif formalarda, rəngarəng qurulması, valideyn-övlad münasibətlərinin demokratik əsaslarda təşkili, uşaq şəxsiyyətinə hörmət və tələbkarlıqla yanaşılması mənəvi tərbiyə işində ailənin əsas olduğunu sübut edir.

15. Məktəbəqədər təhsil müəssisələrinin ailələrlə apardığı tərbiyə işləri uşaqların mənəvi keyfiyyətlərinin üzə çıxarılmasında mühüm əhəmiyyət kəsb edir. Bunun üçün bağça rəhbərlərinin, qrup tərbiyəçilərinin ailələrlə mütəmadi olaraq məqsədyönlü, planlı və mütəşəkkil iş aparmaları zəruridir. Bağçanın ailələrlə əlaqəsinə xidmət edən tədbirlərin, iş formalarının, fəaliyyət növlərinin müəyyənləşdirilməsi və bütün bunların uşaqların mənəvi tərbiyəsinin inkişafına yönəldilməsi məsələnin müvəffəqiyyətli həllinə kömək etmiş olur.

16. Məktəbəqədər yaş dövründə uşaqların mənəvi tərbiyəsinin elmi-pedaqoji-psixoloji və metodik əsasları üzərində düzgün qurulması vətəndaş cəmiyyəti üçün ən ali insani keyfiyyətlərə malik olan yeni insanın yetirilməsi deməkdir.

Məktəbəqədər tərbiyə dövründə bu problemin həlli yollarını daha da təkmilləşdirmək məqsədi ilə aşağıdakı təklifləri məqsədəmüvafiq sayırıq:

1. Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsi işinin müvəffəqiyyətlə həyata keçirilməsi milli qaynaqların, onlardan istifadə yolları, vasitə və məqamların düzgün seçilməsi, eyni zamanda bu prosesdə uşaqların yaşının və anlama səviyyəsinin, xarakter xüsusiyyətlərinin ciddi şəkildə nəzərə alınmasından çox asılıdır. Məhz buna görə də müxtəlif tipli məktəbəqədər təhsil ocaqlarının rəhbərləri, metodistləri, ayrı-ayrı tərbiyəçiləri musiqi rəhbərləri, problemin bu cəhətinə xüsusi fikir verməli, uşaqlarda da çox heyrət yaradan materialların anlaşılmasına diqqət yönəltməli, bu məqsədlə ailə və ictimaiyyətin imkanlarından maksimum səmərə ilə istifadə etməlidirlər.

2. Mənəvi tərbiyədə milli təfəkkür qaynaqlarından istifadə, fəaliyyətinin dinamikliyi ilə daha çox diqqəti cəlb edən məktəbəqədər yaşlı uşaqların bu sahədə lazımi bilikləri qazanması, müvəffəqiyyəti xeyli dərəcədə müvafiq mövzulardan və təlim materiallarından asılıdır. Buna görə də təklif edirik ki, məktəbəqədər təhsil ocaqları üçün daha təkmilləşdirilmiş proqram hazırlayarkən Azərbaycanın həddindən artıq zəngin və ibrətamiz xarakter daşıyan milli qaynaqlarını nəzərə alan mövzularla, problem baxımından daha çox əhəmiyyət kəsb edən materiallarla tanışlıq, müxtəlif tədbirlərin keçirilməsi, milli qaynaqlarla, dini dəyərlərlə əlaqədar məlumatların məcburi məşğələ forması kimi nəzərdə tutularaq uşaqlara çatdırılmasına xüsusi diqqət yetirilməli və bütün məktəbəqədər tərbiyə ocaqlarında bu məşğələlərin silsilə halında keçirilməsinə geniş imkan və şərait yaradılmalıdır.

3. Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin uğurlu həlli üşün ancaq valideyn və məktəbəqədər təhsil müəssisəsi işçiləri deyil, eyni zamanda cəmiyyətdə bərqərar olan bir çox qurum və birliklər, hökumət və qeyri – hökümət təşkilatları, ictimai təşkilatlar bilavasitə iştirak etməlidirlər. Ona görə də müxtəlif tədbirlərin keçirilməsi, bu səpkidə materialların,ədəbiyyat nümunələrinin, elmi-metodik yazıların nəşr olunması daha məqsədəmüvafiq olardı.

4. Milli xüsusiyyətləri, milli əxlaq və etikanı əsas tutmaqla bərabər gündən-günə inkişaf etməkdə olan yeni texnologiyaların tətbiqi, müxtəlif müəllif proqramlarının müsbət, inkişafetdirici nümunələrinin

əxz edilməsi, bu sahədə müəyyən fəaliyyəti olan elm və bilim adamlarınn işlərinə diqqət yetirilməsi fikrimizcə müsbət nəticə verərdi.

5. Qloballaşmanın hökm sürdüyü bir dövrdə milli–mənəvi dəyərləriimizi qorumaqla bərabər, eyni zamanda dünya təcrübəsinə müraciət etməli, inkişaf etmiş ölkələrin müsbət iş təcrübələrinə inteqrasiya etməli, təlimin və tərbiyənin, psixopedaqogikanın müasir təlim texnologiyalarından istifadə etməli, inteqrativ təlim üsullarından istifadə etməliyik. Bu, məktəbəqədər təhsildə olan inkişafla yanaşı, məktəbəqədər yaşlı uşaqların mənəviyyatca dolğun və zəngin bir insan kimi gələcəkdə formalaşması üçün zəmin yaradacaqdır.

6. Ali və orta ixtisas pedaqoji məktəblərinin, kolleclərin məktəbə-qədər təhsil üzrə müvafiq fakültə və şöbələrində məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsi məsələlərinə diqqət artırılmalı, təkmilləşdirmə və ixtisasartırma kurslarında bu istiqamətdə iş davam etdirilməlidir.

7. "Məktəbəqədər pedaqogika", "Pedaqogika", "Məktəb pedaqogikası" adlı dərslik və dərs vəsaitlərini hazırlayarkən tərbiyənin tərkib hissələri sırasına "mənəvi tərbiyə"nin daxil edilməsi və burada uşaqların mənəvi tərbiyəsinin formalaşdırılması işinə məktəbəqədər yaş dövründən başlamağın elmi-pedaqoji sisteminin verilməsi valideynlərə və bu sahədə çalışan mütəxəssislərə köməklik göstərmiş olar.

Dissertasiyanın əsas məzmunu iddiaçının çap olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır.

1. Məktəbəqədər yaşlı uşaqlarda vətənə məhəbbət tərbiyəsi / "Gənclərin vətənpərvərlik tərbiyəsinin aktual problemləri"nə həsr olunmuş Respublika elmi-praktik konfransının tezisləri, Bakı, ADPU, 1994, s.18

2. Gələcək tərbiyəçilərin uşaqlarla mənəvi tərbiyə işləri aparmağa hazırlanması // Pedaqoji Universitet Xəbərləri. Pedaqoji, psixoloji elmlər seriyası. 1997, №1, s. 203 – 208

3. Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsi. // Pedaqoji Universitet Xəbərləri (humanitar, pedaqoji, psixoloji elmlər seriyası). 2001, №4, s.227 – 231

4. Məşğələlər zamanı məktəbəqədər yaşlı uşaqların əxlaqi hisslərinin formalaşdırılması // Pedaqoji Universitet Xəbərləri (humanitar, pedaqoji, psixoloji elmlər seriyası). 2001, №4, s. 231 – 236 5.

Tərbiyəçilərin kiçik yaşlılarla mənəvi tərbiyə işləri aparmağa hazırlanması // “Azərbaycan məktəbi” , 2001, № 5, s. 62 – 66
6. Uşaqların məktəbəqədər müəssisələrə uyğunlaşması // Pedaqoji Universitet Xəbərləri, 2004, №1, s. 433-436
7. Uşaqların mənəvi tərbiyəsində intizama dəvət və valideyn məhəbbətinin qarşılıqlı əlaqəsi // Pedaqoji Universitet Xəbərləri. 2002, №4, s. 310 – 313
8. N.Tusi yaradıcılığında mənəvi tərbiyəyə aid fikirlər. // Pedaqoji Universitet Xəbərləri (humanitar elmlər seriyası). 2006, №3, s. 421 – 431
9. Dini dəyərlərimizdə uşaqların mənəvi tərbiyəsinə aid fikirlər // Pedaqoji Universitet Xəbərləri (humanitar elmlər seriyası). 2006, №2, s. 454 – 462
10. “Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində milli qaynaqlardan istifadə.” Dərs vəsaiti. Bakı, ADPU, 2008, s. 125
11. Преемственность дошкольного и школьного нравственного воспитания // Наука и жизнь Казахстана. Международный научно-популярный журнал. 2009, №3 , с. 189 – 193
12. Uşaqların mənəvi tərbiyəsində xalq oyunlarının rolu. // İbtidai məktəb və məktəbəqədər tərbiyə. 2008, №1, s. 79 – 83
13. Mənəvi tərbiyənin qanunauyğunluqları və psixoloji əsas-ları //Pedaqoji Universitet Xəbərləri. 2008, №3, s. 267–276
14. Şifahi xalq yaradıcılığı nümunələrində əməyə münasibət və mənəvi tərbiyə // ADU, Elmi Xəbərlər. 2008, №6, s. 214 – 221
15. Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində estetik tərbiyə vasitələrindən istifadə imkanları. //Pedaqoji Universitet Xəbərləri. 2009, №3, s. 207 – 213
16. Uşaq bağçasının ailə ilə apardığı iş formalarının məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinə göstərdiyi təsiri // Pedaqoji Universitet Xəbərləri. 2009, №5, s. 350 – 354
17. Стимулирование поведения и деятельности как главное условие духовного воспитания детей дошкольного возраста. // Вопросы гуманитарных наук. Москва, 2009, №3 (41), с. 132 – 136
18. Семья как основа формирования морального воспитания детей. // Педагогические науки. Москва, 2009, №2 (35), с. 13 – 18

19. Məktəbəqədər təhsil müəssisələrində əşyavi – inkişafetdirici mühitin yaradılmasının uşaqların mənəvi tərbiyəsinə təsiri. // Məktəbəqədər və ibtidai təhsil. 2010, №3, s. 87 – 94

20. Məktəbəqədər pedaqogika. Dərs vəsaiti. Bakı, ADPU, 2010, 183 s.

21. Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsi. // Pedaqoji Universitet Xəbərləri (pedaqoji, psixoloji elmlər seriyası). 2010, №1, s. 327 – 334.

22. Məktəbəqədər yaşlı uşaqların emosional-mənəvi inkişafında valideynlərin rolu. // Pedaqoji Universitet Xəbərləri. 2010, №2, s.352 – 357

23. Oyun məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin vasitəsi kimi. // ARTPİ, Elmi Əsərlər, 2010, №2, s. 175 – 180

24. Məktəbəqədər yaşlı uşaqların sosial-əxlaqi inkişafı. // Pedaqoji Universitet Xəbərləri (pedaqoji, psixoloji elmlər seriyası). 2010, №3, s. 283 – 289 (şərikli)

25. Ünsiyyət fəaliyyəti məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin vasitəsi kimi. / Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 87-ci ildönümünə həsr olunmuş "Gənc tədqiqatçıların ümumrespublika elmi konfransı" nın materialları. Qafqaz Universiteti, 6-7 may 2010, s. 372 – 374

26. Bədii-estetik fəaliyyət məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin vasitəsi kimi. // ARTPİ, Elmi Əsərlər, 2010, №3, s. 167 – 172

27. Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində ünsiyyətin rolu. //Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2010, №4, s.179 – 186

28. Təbiətlə tanışlıq məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinin vasitəsi kimi // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. BSU, 2010, №5, s. 188 – 193

29. Məşğələlər məktəbəqədər yaşlı uşaqların sosial-mənəvi inkişafının vasitəsi kimi. // "Turan" Stratejik araşdırmalar merkezi. Uluslararası Bilimsel Hakemli Mevsimilik Dergi. Turan SAM. Yıl. 2010, sayı 7, s.42-48

30. Семья и моральное воспитание дошкольников. // Казахыстан жогары мектеби. Высшая школа Казахстана, 2010, №3, (1), с. 121 – 126

31. Məktəbəqədər təhsil müəssisələrində estetik fəaliyyət mənəvi tərbiyənin vasitəsi kimi / "Azərbaycan təhsili yeni inkişaf mərhələsində" respublika elmi-praktik konfransın materialları. Naxçıvan Müəllimlər İnstitutu. 2010, s. 328 – 330

32. Ətraf aləm və məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsi // Pedaqoji Universitet Xəbərləri (pedaqoji, psixoloji elmlər seriyası), 2010, №6, s. 282– 287

33. Uşaqların emosional aləminin inkişafı. Dərs vəsaiti. Elm və təhsil, Bakı, 2010, 156 səh.(şərikli)

34. Məktəbəqədər təhsilin aktual problemləri. Monoqrafiya Bakı, "Elm", 2010. 282 s.

35. Поведенческая культура как основа нравственного воспитания детей дошкольного возраста / Эпический текст: проблемы и перспективы изучения. Материалы Международной научной конференции. Пятигорск: ПГЛУ. 2010-й год. с. 86 – 87

36. Əxlaq normalarının mənimsənilməsinin məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinə təsiri. // Pedaqoji Universitet Xəbərləri (pedaqoji, psixoloji elmlər seriyası), 2011, №1. s.254-259

37. Стимулирование поведение и деятельности как средство морального воспитания детей дошкольного воспитания / Тошкент, 2011, с.171-172

38. Məktəbəqədər təhsil müəssisələriundə uşaqların mənəvi tərbiyəsində folklor nümunələrindən istifadə / Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji –psixoloji problemləri. Beynəlxalq elmi-praktik konfransın materialları . Naxçıvan-2011, s.86-88

39. Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsində uşaq bağçasının ailə ilə birgə iş formaları // Humanitar elmlərin öyrənil-məsinin aktual problemləri. BSU, 2011, №2, s.141-145.

40. Uşaq bağçasında əşyavi-inkişafetdirici mühitin düzgün qurulmasının mənəvi tərbiyədə rolu, // ARTPİ, Elmi Əsərlər, 2011, №2.s.185-191+

41. Akseoloji təhsil: mənəvi tərbiyə baxımından. // Pedaqoji Universitet Xəbərləri. 2011, № 3, s.299-305.

42. Приучим детей к моральным нормам общества.//Вестник нууз. (Узму хабарлари) Тошкент, Университет , 2011, 2/1, с.169-171.

43. Öyrənmə-idrak fəaliyyəti və məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsi // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. 2011, №3, s.213-217 .

44. Estetik hisslərin inkişafının məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsinə təsiri, // Pedaqoji Universitet Xəbərləri. 2012, №4, s.240-245

45. Cinsi tərbiyənin məktəbəqədər yaşlı uşaqların sosial-mənəvi inkişafına təsiri // ARTPİ, Elmi Əsərlər. 2013. №2, s.38-41

**Алиева Ш.Г.**

## Научно-педагогические основы нравственного воспитания детей дошкольного возраста


## РЕЗЮМЕ

Во введении диссертации обосновывается актуальность темы, исследования, определены его цель, объект, предмет, гипотеза задачи. Освещаются методологические основы, положения, представленные к защите. Показана ее научная новизна, теоретическая и практическая значимость, излагается апробация.

В первой главе нашли свое обширное отражения общие вопросы нравственного воспитания детей дошкольного возраста и изложены в соответствующем порядке как педагогические, так и психологические основы нравственного воспитания.

Во второй главе нашли свое отражения функции нравственного образования детей. В главе отмечено, что положение дел нравственного воспитания детей дошкольного возраста как в научно-педагогической литературе, так и в программных материалах, а так же в практической работе детских садов неудовлетворительно.

В третьей главе нашло свое отражение изучение теоретических основ использования национальных истоков в нравственном воспитании дошкольников. В этой главе так же проделана экспериментальная работа. На основе примеров азербайджанского народного творчества, национальных игр и исламских ценностей были изготовлены обучающие материалы, которые были использованы в эксперименте.

В четвертой главе дана система проведенных комплексных работ. Сюда включены умственные качества, национально-нравственные ценности, примеры прививающие художественный вкус, правильное отношение к труду, а так же физическое здоровье сочетающееся с нравственным воспитанием. В этой главе так же проведена экспериментальная работа, связанная с уровнем нравственного воспитания.

В пятой главе отведено место результатам исследования, которое было проведено по двум направлениям. Первое, семья как основа формирования нравственных качеств, во вторых совместная работа детских дошкольных учреждений с семьей. Впервые в нашей стране дало новое, удачное определение нравственному воспитанию, определены границы, уяснена психологическая сущность и приведены в систему научно-педагогические основы. Как в научной педагогике, так и в истории педагогической мысли, вышеуказанная система, считается новейшей научно-педагогической системой.

Диссертационная работа заканчивается заключением, рекомендациями и списком использованной литературы.

**Sh.Q.Aliyeva**

**The main scientific-pedaqogical features of moral bgining up of pre-school-age children**

**THE RESUME**

It was given the object of problems, subject, the purpose of the duty, the main methodology, scientific innovation, providing profection, theoretical and practical importance and approbation of the introduction of the scientific work.

The general problems of moral bringing up was formed its large solving at the I chapter. The main essence was clarified, the purpose was clearing and the problems increasing from the purpose was commented .The main pedagogical and psychological problems of the pre-school-age children were commented and taken into account on generalization.

The function of pre-school –age education form its place on the moral bringing up of children at the II chapter. As the first function the problem of putting pedagogical scientific literature of moral bringing up the pre- school-age children were shown here, but as the second function the putting of program materials of pre-school-age bringing up were involved on analyses, as the third function were analyzed the learning of position at the kindergartens

The main theoretical and practical using of the natural resource on the moral bringing up of children were founded at the III chapter. The using of national resource, national games Azerbaijan nation creative examples and Islamic values were revealed for the pre-school-age children. The experimental work carried out on the work.

It was taken connecting with the experimental works on the level of the moral bringing up of pre-school-age children and the result which was taken the working accuracy of this assuruption were proved.

The result which were worked on two direction at this research took place in. The first, the family as the main aspect on the children moral quantity, the second work which pre-school-age education and the family carrying out together.

The scientific works which carried out together substantiated and commented as theoretical and practically.

Thus, it is firstly given the new definition of the moral bringing up determined the boundaries, classified the nature of psychology and putting oh the main comprehensive scientific- pedagogical system. And this system is considered as a new scientific-pedagogical system of pedagogic and the history of pedagogical thoughts.

The scientific work ended with the result and suggestion and using literary list at the end.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ

На правах рукописи

ШАХЛА ГАСЫМ кызы АЛИЕВА

# НАУЧНО-ПЕДАГОГИЧЕСКИЕ ОСНОВЫ НРАВСТВЕННОГО ВОСПИТАНИЯ ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

58.04.01 – общая педагогика, история педагогики и образования

А В Т О Р Е Ф Е Р А Т

Диссертации на соискание ученой степени
доктора наук по педагогики

БАКУ - 2014